# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

29 aprel 2026-cı il, çərşənbə
№ 073 (7140)
Qiyməti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Siyasi etimad və strateji tərəfdaşlıq nümunəsi

## Bakı-Praqa əlaqələri dinamik gələcək vəd edir



Bax səh. 2

## Azərbaycan-Çexiya: İqtisadi gündəliyin yeni prioritetləri

Bax səh. 3

## Bir ömrün işığında: insanlığa xidmətin ali nümunəsi



Bax səh. 4

### 701,6 milyon avro...

Bax səh. 5

### Mərkəzi Asiya-Xəzər-Avropa “yaşıl dəhlizi” reallaşır

Bax səh. 6

### Eçmiədzin Kilsəsinin yalanı...

Bax səh. 6

### Hərəkətin sehrində gizlənən duyğular...

Bax səh. 8

## 80 illik qadağa tarixin arxivində



Bax səh. 7

## Gizli danışıqlar...



Bax səh. 7

# Birləşmiş Ərəb Əmirliklərinin nümayəndə heyəti Azərbaycan Prezidentinin qəbulunda

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Qəbələdə Birləşmiş Ərəb Əmirliklərinin Xarici İşlər Nazirliyinin Dövlət naziri Səid bin Mübarək Əl-Hacirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev strateji tərəfdaşlığa əsaslanan ikitərəfli əlaqələrimizin bütün sahələrdə uğurla inkişaf etdiyini deyərək, bu xüsusda Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə dostluq münasibətlərinə toxundu. Prezident İlham Əliyev özünün Birləşmiş Ərəb Əmirliklərinə, Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın isə Azərbaycana, o cümlədən Qarabağa səfərlərini, həmçinin bu səfərlər zamanı aparılmış müzakirələri məmnunluqla xatırladı, bütün bunların əlaqələrimizin genişləndirilməsində mühüm rol oynadığını vurğuladı.

Prezident İlham Əliyev Səid bin Mübarək Əl-Hacirinin ölkəmizə böyük nümayəndə heyəti ilə gəldiyini deyərək, bu səfərin münasibətlərimizin dərinləşdirilməsi baxımından roluna toxundu.

Qəbula görə minnətdarlığını bildirən Səid bin Mübarək Əl-Haciri Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın salamlarını dövlətimizin başçısına çatdırdı.



Azərbaycan Prezidenti salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Şeyx Məhəmməd bin Zayed Al Nəhyana çatdırmağı xahiş etdi.

Qonaq dövlətimizin başçısının liderliyi ilə Cənubi Qafqaz regionunda sülh gündəliyinin irəli aparılması prosesində əldə edilmiş uğurlar, həmçinin Azərbaycan ilə Ermənistan arasında sülhün əldə olunması və dialoqun təşviqi istiqamətində göstərdiyi səylərə görə Azərbaycan Prezidentinin "Sülh və Barışıq üçün Gernika mükafatı"na layiq görülməsi münasibətilə təbriklərini çatdırdı.

Təbriklərə görə təşəkkür edən Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin qurucusu, sabiq Prezidenti Şeyx Zayed bin Sultan Al Nəhyanın humanitar irsini və dəyərlərini təşviq edən "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsini xatırladı və buna görə Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə bir daha minnətdarlığını çatdırmağı qonaqdan xahiş etdi.

Görüşdə ölkələrimiz arasında ikitərəfli gündəliyin zəngin olduğu vurğulandı, siyasi, iqtisadi, ticari, enerji, həmçinin bərpaolunan enerji, birgə investisiya fondunun fəaliyyəti, birgə hərbi təlimlər və digər istiqamətlərdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

Söhbət zamanı Yaxın Şərqdəki vəziyyətə toxunuldu, regiondakı bütün məsələlərin diplomatik yolla həll edilməsinin vacibliyi bildirildi.

# Siyasi etimad və strateji tərəfdaşlıq nümunəsi

## Azərbaycan - Çexiya: Qarşılıqlı münasibətlər yüksələn xətlə inkişaf edir



Azərbaycana daha bir yüksəksəviyyəli qonağın səfəri uğurla baş tutub. Söhbət Çexiyanın Baş naziri Andrey Babişin aprelin 26-da respublikamıza reallaşan rəsmi səfərindən gedir. Səfər çərçivəsində Prezident İlham Əliyevlə Baş nazir Andrey Babiş bir sıra məsələlərlə bağlı önəmli müzakirələr aparıblar.

Azərbaycanla Çexiya arasında əlaqələr müxtəlif istiqamətləri əhatə etməklə çoxvektorlu səciyyə daşıyır. Hər iki tərəf qarşılıqlı maraqları əsas götürməklə münasibətlərin daha da möhkəmlənməsinə güclü siyasi iradə nümayiş etdirir və buna uyğun olaraq da əlaqələr genişlənir.

**Azərbaycanın artan beynəlxalq nüfuzu və liderlərin Qəbələdə qarşılanmasının özəlliyi**

Hazırda dünyada izlənilən geosiyasi proseslər fonunda Cənubi Qafqaza maraq əhəmiyyətli dərəcədə artıb ki, bu da təsadüfi deyil. Xüsusilə də yaxın Şərqdə və Şərqi Avropada müharibələrin alovlanması, Şimal marşrutlarından, Hörmüz boğazından keçidlərin təhlükəli hala gəlməsi sabit məkan kimi Cənubi Qafqazı diqqət mərkəzinə gətirib. Buradan keçən Orta Dəhlizin funksionallığının getdikcə artması bunu əyani şəkildə təsdiqləyir. Mühüm məqam isə ondan ibarətdir ki, Azərbaycan regionda izlənilən proseslərin əsas aktoru qismində çıxış edir. Ölkə uzunmüddətli sabitliyə, nümunəvi təhlükəsizlik mühitinə malikdir. Böyük investisiya qoyuluşu hesabına yaradılan yüksəksəviyyəli nəqliyyat-logistika infrastrukturu, qonşularlla yaxşı münasibətlər tranzit daşımaları üçün ideal şəraiti təmin edir. Azərbaycan, həmçinin qazandığı parlaq qələbələr sayəsində regionda müharibə risklərini aradan qaldırıb. Ölkəmizin postmüharibə dövründə müəyyənləşdirdiyi sülh gündəliyi milli maraqları təmin etməklə yanaşı, həm də regional və qlobal əməkdaşlıq üçün böyük perspektivlər açıb. Ötən il avqustun 8-də Vaşinqton zirvə görüşündə əldə olunan razılaşmalar onun təsdiqidir ki, dünya Azərbaycanın sülh gündəliyini təqdir edir.

Beləliklə, regionda müşahidə edilən diplomatik fəallıq fonunda dünya ölkələri, ayrı-ayrı beynəlxalq təşkilatlar respublikamıza böyük maraq göstərirlər. Qürurverici haldır ki, liderlər fəal və nəticəyönümlü diplomatiyanın müəllifi olan Prezident İlham Əliyevlə müzakirələr aparmağa ehtiyac duyurlar. Son aylarda Litvanın Baş naziri İnqa Ruqinienenin, Latviya Prezidenti Edqars Rinkeviçsin və Ukrayna Prezidenti Volodimir Zelenskinin ölkəmizə səfərləri bu dinamikanın təsadüfi olmadığını göstərir. Bu proseslər beynəlxalq arenada Azərbaycanın artıq yalnız enerji tərəfdaşı deyil, həm də siyasi dialoq və çoxtərəfli əməkdaşlıq üçün etibarlı platforma kimi qəbul edildiyini təsdiqləyir. Xüsusilə Avropa ölkələrinin Azərbaycana artan marağı onların regionda sabitlik, enerji təhlükəsizliyi və yeni nəqliyyat dəhlizləri ilə bağlı strateji hədəflərindən irəli gəlir. Qeyd edək ki, Andrey Babiş Avropa İttifaqından (Aİ) kənar ölkələrin respublikamıza səfərə gələn ilk Baş nazirdir. Andrey Babişin respublikamıza səfəri fonunda aydın olur ki, Azərbaycan artıq regional deyil, daha geniş coğrafiyada strateji tərəfdaş kimi qəbul olunur.

Azərbaycan Prezidentinin liderləri Qəbələdə qarşılaması da xüsusi özəlliyə malikdir. Bu, bilavasitə Azərbaycanın spesifik inkişaf strategiyası ilə bağlı olan bir məsələdir. Məlumdur ki, respublikamızda Prezident İlham Əliyevin təşəbbüsü ilə 2004-cü ildən başlayaraq məqsədli regional inkişaf proqramları reallaşdırılıb. Bunun da nəticəsində ölkənin regionlarının da sürətli sosial-iqtisadi inkişafı təmin edilib. Qəbələdə ayrı-ayrı ölkələrin dövlət və hökumət başçılarının qarşılanması Azərbaycanın regional inkişaf proqramlarının kifayət qədər uğurlu olmasının bariz göstəricisidir. Ukrayna Prezidentinin və Çexiya Baş nazirinin Qəbələdə qarşılanması yeni protokol yanaşmasının göstəricisi olmaqla yanaşı, regionların diplomatik xəritədə rolunun artırılması siyasətinin tərkib hissəsidir. Daha əvvəl Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşünün də Qəbələdə keçirilməsi bu şəhərin strateji əhəmiyyətini artırıb. Bu isə o deməkdir ki, Qəbələ artıq Bakı və Şuşa ilə yanaşı, yeni diplomatik mərkəz kimi formalaşır.

**Azərbaycan-Çexiya münasibətlərində yeni mərhələyə keçid**

Çex Respublikası Azərbaycanın müstəqilliyini 8 yanvar 1992-ci ildə tanıyıb. İki ölkə arasında diplomatik münasibətlər 27 yanvar 1993-cü ildə qurulub. Azərbaycanın Çexiyadakı Səfirliyi 31 oktyabr 2005-ci il, Çexiyanın respublikamızdakı Səfirliyi isə 24 sentyabr 2019-cu il tarixlərində təsis edilib. Prezident İlham Əliyevin 12 avqust 2013-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Çex Respublikasının Karlovı Varı şəhərində fəxri konsulu təyin edilib.

Qarşılıqlı münasibətlərin yüksələn xətlə inkişafına dövlət başçılarının səfərləri güclü impuls verir. İndiyədək Azərbaycan Prezidentinin Çexiyaya 5 səfəri baş tutub. Sonuncu səfər (işgüzar) Prezident İlham Əliyev tərəfindən 6-7 oktyabr 2022-ci il tarixlərində həyata keçirilib. Öz növbəsində Çexiya Prezidentinin Azərbaycan 2 rəsmi səfəri baş tutub. Sonuncu səfər Miloş Zeman tərəfindən 15-17 sentyabr 2015-ci il tarixlərində reallaşdırılıb. Bundan başqa, hər iki ölkənin digər yüksəksəviyyəli rəsmilərinin də tez-tez qarşılıqlı səfərləri baş tutur. Parlamentlərarası əlaqələr də yüksək səviyyədədir. Milli Məclisdə Azərbaycan-Çexiya parlamentlərarası əlaqələr üzrə işçi qrupu, həmçinin Çexiya parlamentinin Deputatlar Palatasında Çexiya-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir.

Çexiya-Azərbaycan münasibətlərinin institusional bazası kifayət qədər möhkəmdir. 2011-ci ildən fəaliyyət göstərən iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Qarışıq Komissiya bu münasibətlərin institusional əsasını təşkil edir. 2015-ci ildə imzalanmış Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə Azərbaycan-Çexiya münasibətlərinin keyfiyyətcə yeni mərhələyə keçidini təmin edib. Bu sənəd yalnız siyasi deyil, həm də iqtisadi, enerji və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yol xəritəsi rolunu oynayıb. Eyni zamanda, beynəlxalq hüququn əsas prinsiplərinə, o cümlədən ərazi bütövlüyünə dəstək bu tərəfdaşlığın dəyərlər əsaslı olduğunu göstərir.

Qarşılıqlı münasibətlərini strateji tərəfdaşlığın ruhuna uyğun şəkildə inkişaf etdirməkdə maraqlı olan Azərbaycanla Çexiya beynəlxalq təşkilatlar, o cümlədən BMT, ATƏT, Avropa İttifaqı çərçivəsndə də sıx əməkdaşlıq edirlər. Cexiya hər zaman Azərbaycanın ərazi bütövlüyünə, ölkəmizin Aİ ilə əlaqələrinin genişlənməsinə dəstək verib.

*Mübariz ABDULLAYEV*

# Bakı-Praqa əlaqələri dinamik gələcək vəd edir

## İki dövlət arasında səmimi siyasi dialoq mövcuddur



Son 6 ildə Cənubi Qafqaz regionunda formalaşdırdığımız yeni siyasi-iqtisadi konfiqurasiya, dialoq müstəvisi və əməkdaşlıq platformaları bütün dünya üçün cəlbedici xarakter daşıyır. Bakı yerləşdiyi bölgəni qlobal mühit üçün münbit tərəfdaşlıq coğrafiyasına çevirməyi bacarıb - burada əsas məqamlardan biri isə, bütün qitə və kontingentlərin Cənubi Qafqaza qarşı münasibətinin dəyişməsidir. İstər Qlobal Cənub ölkələri, istər Asiya məkanının aparıcı dövlətləri, istər Türk birliyi və Mərkəzi Asiya, istərsə də bütövlükdə Avropa Azərbaycanın yaratdığı yeni dialoq platformada iştiraka can atır. Azərbaycan bu gün sözün əsl mənasında Avrasiyanın aparıcı paytaxtına çevrilib. Son bir ayda bir neçə Avropa ölkəsinin dövlət və hökumət başçısının ölkəmizə səfəri də bu deyilənləri təsdiqləyir. Litvanın Baş naziri İnqa Ruqinienenin, Latviya Prezidenti Edqars Rinkeviçsin və Ukrayna Prezidenti Volodimir Zelenskinin, Çex Respublikasının Baş naziri Andrey Babişin ölkəmizə səfərləri bu dinamikanın təsadüfi olmadığını göstərir. Bu səfərlər yalnız iqtisadi əməkdaşlıq və ya enerji sektorunu əhatə etmir - paralel olaraq Bakı ilə formalaşan sityasi dialoqun daha da intensivləşməsinə, dərinləşməsinə xidmət göstərir.

**Yüksəksəviyyəli siyasi münasitbətlər...**

Azərbaycanın yürütdüyü xarici siyasət kursunda əməkdaşlıq, bərabərhüquqlu tərəfdaşlıq və beynəlxalq hüquqa sadiqlik, eyni zamanda ədalət prinsipiləri hər zaman ön planda yer alır. Bakı iqtisadi sektorda olduğu kimi, siyasi platformada da etibarlı, güvənilən bir dövlət kimi çıxış edir. Qlobal konfrantasiyalara münasibətdə sülhpərvər mövqedən çıxış etməsi, problemlərin qarşıdurma yolu ilə deyil, dinc danışıqlar yolu ilə həllini dəstəkləməsi, bu prosesdə uğurlu vasitəçilik rolu təqdim etməsi Azərabycanın siyasi nüfuzunu daha artırır - bütün dünya Bakıya münasibətdə etibarlı tərəfdaş yanaşması sərgiləyir.

Vurğulandığı kimi, Çexiya Respublikasının Baş nazirinin Azərbaycana səfəri qarşıdakı dövrdə iki ölkə arasında iqtisadi münasibətəlrin inkişafı ilə yanaşı həm də siyasi dialoqun genişlənməsinə şərait yaradacaq. Qarşılıqlı görüşlər bu mühitin əlverişli hal almasını şərtləndirir. Prezident İlham Əliyev Qəbələdə Çex Respublikasının Baş naziri Andrey Babişlə birgə mətbuata bəyanatında da bildirib ki, cənab Babişlə 3 ay bundan əvvəl Davosda görüşüb: "Bu, bizim birinci görüşümüz olmuşdur və görüş çox məhsuldar keçmişdir, bir çox məsələlər ətrafında fikir mübadiləsi apardıq. Mən cənab Baş naziri Azərbaycana rəsmi səfərə dəvət etmişəm və şadam ki, bu gün cənab Baş nazir bu səfəri Azərbaycana həyata keçirir".

Qeyd edildiyi kimi, yanvarın 21-də baş tutan həmin görüşdə iki ölkə arasında siyasi, iqtisadi, enerji, maşınqayırma, nəqliyyat və digər sahələri əhatə edən əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğu müzakirə edilib. Münasibətlərin dərinləşdirilməsində müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin önəminə toxunulub. Həmin görüşdə müzakirə edilən detallar bu gün ikitərəli əlaqələrin daha da möhkəmlənməsi üçün baza rolunu oynayır. Prezident Qəbələdə mətbuata bəyanatında deyib ki, bu, iki ölkə arasındakı əlaqələrin dinamik şəkildə inkişafını göstərir: "Bizim indi çox fəal siyasi dialoqumuz var. Bu gün bir çox məsələlər - həm regional, həm ikitərəfli, həm də daha qlobal xarakter daşıyan məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır".

**Münasibətlər möhkəm təməllərə söykənir**

İki ölkə arasında siyasi münasibətlər möhkəm hüquqi təmələ söykənir - 2015-ci ildə imzalanmış Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə Azərbaycan-Çexiya münasibətlərinin keyfiyyətcə yeni mərhələyə keçidini təmin edib. Bu sənəd yalnız siyasi deyil, həm də iqtisadi, enerji və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yol xəritəsi rolunu oynayıb. Eyni zamanda, beynəlxalq hüququn əsas prinsiplərinə, o cümlədən ərazi bütövlüyünə dəstək bu tərəfdaşlığın dəyərlər əsaslı olduğunu göstərir.

Bundan başqa, 2011-ci ildən fəaliyyət göstərən iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Qarışıq Komissiya bu münasibətlərin institusional əsasını təşkil edir. Ötən ilin iyununda Xarici İşlər nazirlikləri arasında Praqada keçirilmiş siyasi məsləhətləşmələr isə dialoqun davamlı xarakter daşıdığını sübut edir. Məsləhətləşmələr zamanı iki ölkə arasında siyasi əlaqələrin inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb, davamlı siyasi dialoqun təşviqi məqsədilə qarşılıqlı səfərlərin və beynəlxalq tədbirlər çərçivəsində təmasların önəmi vurğulanıb. Paralel olaraq iqtisadi sahədə əməkdaşlıq kontekstində ikitərəfli ticarət dövriyyəsinin artırılması, habelə enerji, nəqliyyat, yüksək texnologiyalar kimi sahələrdə birgə layihələrin həyata keçirilməsi imkanları müzakirə edilib. Azərbaycanın təşəbbüskarı və fəal tərəfdaşı olduğu mühüm nəqliyyat layihələri, o cümlədən Orta Dəhliz təşəbbüsü çərçivəsində ölkəmizin strateji rolu yüksək qiymətləndirilib. Eyni zamanda, təhsil, mədəniyyət, turizm sahələrində əməkdaşlığın xalqlararası əlaqələrin gücləndirilməsinə önəmli töhfə verəcəyi qeyd olunub. Görüşdə, həmçinin postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, Ermənistan-Azərbaycan normallaşma prosesi, davamlı sülhün təmin edilməsi istiqamətində ölkəmiz tərəfindən atılan addımlar, eləcə də işğaldan azad edilmiş ərazilərimizdəki mina problemi və orada həyata keçirilən irimiqyaslı bərpa-quruculuq işləri barədə ətraflı məlumat verilib.

Qeyd olunduğu kimi, münasibətlərin intensivləşməsində qarşılıqlı səfərlərin rolu olduqca əhəmiyyətlidir - Azərbaycan Prezidenti indiyədək Çex Respublikasına ümumilikdə dörd səfər edib. Çexiya prezidentləri isə ölkəmizdə ümumilikdə iki, Çexiya Baş naziri isə bir dəfə səfərdə olub. Bu səfərlər zamanı müzakirə olunan məsələlər isə bütövlükdə Çex Respublikası-Azərbaycan münasibətlərinin yüksək səviyyəyə qalxmasında mühüm rol oynayıb. Qarşıda isə yeni mərhələ var - artıq münasibətlər daha dinamik xarakter alacaq. Prezident İlham Əliyev Qəbələdə mətbuata bəyanatında bildirib ki, bir çox digər sahələr ətrafında fikir mübadiləsi aparılıb: "Hökumətlərarası Komissiyanın tezliklə tədbir keçirməsi, yenidən görüşməsi ilə bağlı fikir mübadiləsi aparılmışdır. Yəni bu gün bir daha Çexiya-Azərbaycan dostluğu, əməkdaşlığı öz təsdiqini tapır və bizim qarşımızda çox gözəl perspektivlər açılır".

**Güvənilir, etibarlı tərəfdaş...**

Bütövlükdə Azərbaycana olan bu diqqət və maraq Bakının Avrasiyanın geoiqtisadi məntiqini müəyyən edən əsas aktorlardan birinə çevrildiyini təsdiqləyir. Azərbaycanın çoxşaxəli tərəfdaşlıq siyasəti, yeni kommunikasiya arxitekturası və təhlükəsizlik modelinin effektivliyi onun qlobal sistemdə strateji mərkəz rolunu daha da gücləndirir. Rəsmi Bakı müasir çağırışları sadəcə izləməklə kifayətlənmir, onları əvvəlcədən qiymətləndirərək çevik şəkildə siyasi, iqtisadi və diplomatik xəttinə tətbiq edir. Burada əsas faktor Azərbaycanın həm Şərq, həm Qərb, həm də göründüyü kimi bütövlükdə Avropa ilə paralel strateji tərəfdaşlıqlar qurmasıdır. Bu əlaqələr statik deyil, dinamik xarakter daşıyır və Bakı bu dinamikanı idarə etmək bacarığı ilə qlobal səviyyədə fərqlənir. Bu isə ölkəmizi bütün dövlətlər üçün strateji tərəfdaş olaraq ön plana çıxarır. Çex Respublikasının Baş naziri Andrey Babiş də mətbuata bəyanatında vurğulayıb ki, "burada bəyan edə bilərəm ki, Azərbaycan Çex Respublikasının strateji tərəfdaşıdır. Buna görə məmnunam ki, münasibətlərimiz də dostluğa söykənir. Aydındır ki, Azərbaycan dünyanın diqqət mərkəzindədir. Ukrayna Prezidenti Zelenski burada oldu, sonra Ciorcia Meloni bura səfər edəcək. Bu, sadəcə, gözəl ölkənizin əhəmiyyətini bir daha nümayiş etdirir".

Bəli, bu amil Bakının yaratdığı yeni siyasi-iqtisadi mahiyyətə verilən qiymətdir. Artıq hər kəs təsdliqləyir ki, Azərbaycanın təhlükəsizlik fəlsəfəsi təkcə hərbi gücə əsaslanmır - bu fəlsəfə iqtisadi əlaqələr sisteminin qurulmasını, enerji davamlılığını və kommunikasiya marşrutlarının şaxələndirilməsini özündə ehtiva edir. İki qitənin qovşağında yerləşən Azərbaycan Avropanın enerji təchizatında, həm də Orta Dəhliz boyunca yüklərin təhlükəsiz daşınmasında əsas zəmanətçi ölkə kimi qəbul edilməkdə yanaşı, bölgənin sabitliyinə cavabdeh bir dövlətdir. Həm də bu səbəbdən sabitliyin zərurət olduğu coğrafiyada dünyanın güclü aktorları - Avropa İttifaqı, Çin, Türkiyə, Mərkəzi Asiya ölkələri Azərbaycanla əməkdaşlığı prioritet elan edirlər. Çünki bu əməkdaşlıq təkcə iqtisadi deyil, həm də təhlükəsizlik baxımından əsaslı mexanizm formalaşdırır.

*P.İSMAYILOV*

# Azərbaycan-Çexiya: İqtisadi gündəliyin yeni prioritetləri

Aprelin 26-da Çex Respublikasının Baş naziri Andrey Babişin ölkəmizə rəsmi səfəri ikitərəfli münasibətlərin inkişafını əks etdirən mühüm hadisə olmaqla yanaşı, Avropa İttifaqının strateji tərəfdaşı kimi mövqeyini gücləndirən Azərbaycanın iqtisadi nüfuzunun göstəricisi hesab edilə bilər. Baş nazirin nümayəndə heyətində geniş biznes dairələrinin təmsil olunması isə səfərin prioritetləri sırasında iqtisadi əməkdaşlığın ümdə yer tutduğunu və gündəliyin kifayət qədər çoxspektrli olduğunu təsdiqlədi. Azərbaycanın dövlət başçısı ilə keçirilən təkbətək və geniş tərkibli görüşlərdə, habelə tərəflərin mətbuata bəyanatlarında da çoxistiqamətli iqtisadi bölmələrdə əlaqələri təşviq edəcək yeni kursun prioritetlərti ilə bağlı fikirlər səsləndirildi.




Prezident İlham Əliyevin xatırlatdığı kimi Çex Respublikası Azərbaycan üçün mühüm strateji tərəfdaşdır, ölkələrimiz arasında əməkdaşlığın strukturu geniş və dinamikdir, davamlı olaraq müsbət xarakter almaqdadır. Hazırkı müasir geoiqtisadi çağırışlar bu dinamizmi daha da artırmağı vacib edir ki, hər iki ölkə bu istiqamətdə birgə niyyətini ifadə edib. Müzakirlər zamanı da iqtisadi sahədə görüləcək işlərlə bağlı təkliflər dəyərləndirilib və konkret layihələrlə bağlı qərar qəbul etmək üçün anlaşmalar əldə edilib: "Bizim çox böyük ümidimiz ondan ibarətdir ki, ticarət dövriyyəmizi daha da yüksək səviyyəyə qaldıraq. Halbuki bu gün də ticarət dövriyyəmiz əhəmiyyətli dərəcədə artmışdır, 800 milyon dollardan çoxdur. Amma əgər biz ticarət dövriyyəsinin strukturuna baxsaq görərik ki, burada əsasən Azərbaycan neftinin ixracı gözə dəyir. Ona görə biz ticarət dövriyyəsinin daha tarazlı olmasını və strukturun təkmilləşdirilməsini arzulayırıq. Ümid edirəm ki, biz buna nail olacağıq. Çünki bu gün həm təkbətək görüşdə, həm heyətlərin iştirakı ilə apardığımız danışıqlarda bir çox konkret iqtisadi və sərmayə yönümlü layihələr müzakirə edilmişdir".

**Avropa İttifaqında 4-cü ticari tərəfdaş**

Artan iqtisadi göstəricilər və genişlənən investisiya əlaqələri strateji tərəfdaşlığın real məzmununun qaneedici olduğunu təsdiqləyir. Bu dinamika Azərbaycanın beynəlxalq sistemdə mövqeyinin təkcə sabitləşmədiyini, eyni zamanda, daha da gücləndiyini nümayiş etdirir. 2025-ci ildə 814,73 milyon dollara çatan ticarət dövriyyəsi iqtisadi əlaqələrin dinamik inkişafını göstərir. Çexiya Azərbaycanın 6-cı ən böyük ixrac tərəfdaşı olmaqla yanaşı, Avropa İttifaqı daxilində 4-cü yerdə qərarlaşıb. Bu fakt Azərbaycanın Avropa bazarındakı mövqeyinin gücləndiyini nümayiş etdirir.

Ölkələrimizin energetika sahəsində əməkdaşlığı isə xüsusi önəm daşıyır. Azərbaycan Çexiyaya xam neft ixrac edir və 2025-ci ildə bu ölkə İtaliyadan sonra ikinci ən böyük idxalçı olub, ölkənin neft tədarükünün 42 faizi Azərbaycanın hesabına təchiz olunur. Ona görə də, bir nömrəli təchizatçı olan Azərbaycanla enerji bağlantısının hüquqi-iqtisadi baza əsasında möhkəmləndirilməsi nəzərdə tutulur.Bununla yanaşı, Çexiya tərəfi bərpaolunan enerji, enerji səmərəliliyi və hidrogen sahələrində əməkdaşlıqda maraqlıdır. Bu isə münasibətlərin ənənəvi enerji modelindən daha innovativ istiqamətlərə keçdiyini göstərir. Eləcə də 16 ölkəyə qaz ixrac edən Azərbaycanın tərəfdasları sırasında 10 Avropa İttifaqının üzv ölkəsi var ki, onlardan biri Çexiyadır. Eyni zamanda, yanacaq bu ölkənin nəql infrastrukturu vasitəsilə qonşu Aİ dövlətlərinə də çatdırılır.

Çex Respublikası təmiz enerjiyə keçid üçün iradə nümayiş etdirir və Avropa Komissiyası, Avropa İttifaqı Şurası qarşısında bərpaolunan enerji təchizatının artırılmasını tələb edir. Baş nazir Andrey Babişin vurğuladığı kimi "ETS1", "ETS2" ilə Avropa sənayesi məhv edilir, Avropanın və Avropa vətəndaşlarının həyatlarına zərbə vurulur. Avropa təşkilatlarına ünvanlanmış məktublarda bu qlobal problemin sənaye və ətraf mühitə zərələr vurması xatırladılıb, problemin yaşıl razılaşma ilə həlli üçün təşəbbüs irəli sürülüb. Eləcə də, Yaxın Şərqdə və İranda baş verən münaqişələr, Hörmüz boğazı ilə bağlı yaranmış problemlər Avropada, o cümlədən Çex Respublikasında xam neft və qazın daha etibarlı mənbələrdən tədarükü məsələsini ön plana çıxarır. Burada isə ən etibarlı və dayanıqlı mənbə Azərbaycan hesab edilir, hazırkı səfərin əsas məqsədlərindən biri də məhz enerji ilə bağlı əlavə təminatlar əldə etməkdir. Eləcə də, Çexiyanın ən böyük qazpaylayıcı şirkəti olan "ÇES"in rəhbər heyətinin Azərbaycana gəlməsi isə uzunmüddətli müqavilənin imzalanması niyyətini əks etdirir.

**Münbit investisiya iqlimi sərmayələri təşviq edir**

Prezident İlham Əliyevin və Çex Respublikasının Baş naziri Andrey Babişin iştirakı ilə Azərbaycan-Çexiya biznes-forumunun keçirilməsi də iqtisadi-investisiya təmaslarını möhkəmləndirmək baxımından mühüm əhəmiyyət kəsb edir. Hər iki ölkədən dövlət rəsmiləri ilə yanaşı, ticarət, enerji, sənaye, tikinti, maliyyə, nəqliyyat-logistika, İKT və xidmət sahələrində fəaliyyət göstərən şirkətlərin nümayəndələrinin iştirak etdiyi biznes-forumda çıxış edən Prezident İlham Əliyevin qeyd etdiyi kimi bu tədbir biznesin birgə aparılmasında qarşılıqlı marağın çox aydın işarəsidir. Bu, hər iki tərəf üçün ticarəti gücləndirmək, sərmayələrdə fəal iştirak etmək, praktiki layihələrə nəzər salmaq və işbirliyinin qurulması yolları haqqında qərar vermək baxımından yaxşı platforma ola bilər.

Azərbaycanın yaratdığı sərmayə çərçivəsi potensial investorlar üçün cəlbedici və iqtisadi fəallıq üçün mühüm əhəmiyyət kəsb edir. Təmin edilmiş güclü maliyyə və iqtisadi vəziyyət siyasi sabitliklə möhkəm vəhdət təşkil edərək çex iş adamları üçün də yaxşı imkanlar yaradır. Eləcə də Azərbaycanda valyuta sabitlyi də uzunmüddətli sərmayələrin qorunması baxımından əhəmiyyətlidir. Belə ki, 2017-ci ildən etibarən bir dollar 1,7 manat təşkil edir ki, bu, hər hansı yerli və xarici potensial sərmayədar üçün dayanıqlı kurs olmaqla, kapitalın qorunmasına təminat verir. Bu və digər amillərin nəticəsidir ki, Azərbaycana hər il sərmayə qoyuluşları artır və hazırda bu rəqəm 350 milyard dollara çatıb. Həmin kapitalın yarısı xarici tərəfdaşların payına düşür. Bir sözlə, siyasi sabitlik, sosial sabitlik, təhlükəsizlik, işgüzar fəaliyyətlə məşğul olmaq qərarını qəbul edən sərmayədarlara bütün təminatları verir.

**Şərq-Qərb nəqliyyat dəhlizində ortaq maraqlar**

Azərbaycan regionda mühüm nəqliyyat-logistika dəhlzilərində də körpü rolunu oynayır, Şərq-Qərb nəqliyyat dəhlizinə geniş sərmayə yatırır. Hazırda müxtəlif regionlarda baş verən risklər ənənəvi təchizat zəncirinin kəsilməsinə, logistika və tranzitlə bağlı problemlər yaradır ki, bu da həmin strateji dəhlizlərə heç vaxt olmadığı kimi ehtiyacı artırır. Bu baxımdan, Şərqdən Qərbə və əks istiqamətə, hətta Şimaldan Cənuba və Cənubdan Şimala təhlükəsiz və etibarlı tranziti təmin edən Azərbaycanın rolu və imkanları daha da artır. Hər iki dəhlizin kəsişməsində yerləşməsi Azərbaycanı Avropa ölkələri, o cümlədən Çexiya üçün etibarlı kommunikasiya partnyoruna çevirir.

Nəticə verən sahələrdən biri müdafiə sənayesidir. Çexiya müdafiə sənayesi sahəsində özünün müasir və etibarlı məhsulları ilə xeyli tanınır. Azərbaycan Çexiyanın şirkətləri ilə artıq bir neçə müqavilə imzalayıb və hazırda fəaliyyət dairəsinin artırılması və birgə istehsala başlamaq planlaşdırılır.

Birgə İqtisadi Komissiyanın həmsədrliyinin səviyyəsinin nazirlər səviyyəsinə qaldırılması və Birgə Hökumətlərarası Komissiyasının iclasının təşkili də müzakirələr sırasında yer alıb və hər iki tərəf bu ideyanı dəstəkləyir. Komissiyanın iclasının davamlı keçirilməsi iqtisadi mübadilələri artırmaq, biznes ictimaiyyətini konkret layihələrə istiqamətləndirilmək baxımından səmərəli və çevik platforma rolunu oynaya bilər. Prioritet sahələrdən biri kimi Azərbaycana yatırıla biləcək potensial investisiyalardır ki, çex şirkətləri sənaye sektorunda bu fəallığı təmin edə bilər.

**Sənaye sahəsində çoxşaxəli investisiya əməkdaşlığı**

Çexiyanın sənaye sahəsində yüksək ixtisaslaşmış "L-39NG Aero Vodochody", "CSG Aerospace", "Ceska Zbrojovka", "Colt", "Excalibur International", "Explosia", "VOP CZ", "Omnipol" və "Livance SRO Meteopress" şirkətləri Avropada da məşhurdur. Nümayəndə heyətinə nəqliyyat şirkətləri də daxildir. Bu şirkətlər qatarlar və dəmir yolu texnologiyasından tutmuş, qabaqcıl nəqliyyatı idarəetmə sistemi və "ağıllı" infrastrukturu və digər xidmət təchizatlarını həyata keçirir. Məsələn, "SKODA Transportation" və "PPF"in üzvü olan "SKODA" şirkətlər qrupunun Bakı Metrosunda infrastruktur təminatında yer alır. Həmçinin, "AZD Praha", "CZ Loco", "Daco" və "Tatra Export" şirkətləri də müxtəlif nəqliyyat layihələrində təmsil olunur. Tanınmış 50 çex şirkətinin nümayəndələri arasında "ÇES", "Inco Engineering", "Provico", "TTC Marconi", "ZPA Pecky", "ZVVZ Engineering" və "ZDAS" var ki, onlar sənaye və nəqliyyat sahəsində birgə iş qurmaq, müştərək müəssisə yaratmaq niyyətindədir.

Bundan başqa, tərəflər bərpaolunan enerji sahəsində əməkdaşlığa üstünlük verir. Çex şirkətlərinin Azərbaycanda, o cümlədən bərpaolunan enerji sahəsində fəal iştirakı diqqət çəkir. Naxçıvanda 500 MVt gücündə fotoelektrik stansiya layihəsində iştirak və hidroelektrik avadanlıqların təchizatı imkanlarının araşdırılması bu əməkdaşlığın konkret nümunələridir.Azərbaycanda böyük potensialı olan bərpaolunan enerji sahəsi fəal şəkildə inkişaf etdirilir, hədəf 2032-ci ilə qədər Günəş, külək və hidroelektrik enerjidən 8 giqavat əldə etməkdir və bu, təkcə planlara yox, artıq imzalanmış müqavilələrə əsaslanır. Bu sahədə də Çexiya şirkətləri ilə yaxın tərəfdaşlığın fayda verəcəyinə böyük ümidlər var.

Ölkələrimiz arasında digər önəmli əməkdaşlıq sahəsi müdafiə sənayesi ilə bağlıdır. Burada da uzun müddət ərzində uğurlu əməkdaşlıq aparılır. Biz Çexiyadan bir çox hərbi təyinatlı məhsullar alırıq və indiki mərhələdə birgə istehsalla bağlı konkret layihələr üzərində danışıqlar gedir.

**Qadın sahibkarlar arasında anlaşma memorandumu**

Çexiyanın Baş nazirinin birinci müavini, sənaye və ticarət naziri Karel Havliçek bildirib ki, biznes-forumda hər iki ölkənin nüfuzlu şirkətləri arasında birgə fəaliyyətin inkişafı istiqamətləri haqqında fikirlər bölüşüldü və anlaşmalar əldə olundu. Forum çərçivəsində AZPROMO ilə "Frydlantske Strojirny - TR s.r.o." şirkəti, Çexiya-Moraviya Qadın Sahibkarlar Assosiasiyası ilə Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası arasında əməkdaşlıq memorandumları, AZPROMO ilə Çexiyanın Sənaye Konfederasiyası, Sumqayıt Texnologiyalar Parkı ilə "Skoda Transportation" şirkəti, "BCC Group CJSC Azerbaijan" ilə "WITKOWITZ, A.S., RADIS D.O.O" arasında isə anlaşma memorandumları mübadilə olunub.Bu, yeni tərəfdaşlıq imkanlarını reallşadırmaq üçün mühüm sənədlər hesab edilə bilər.

Beləliklə, Baş nazir Andrey Babişin ölkəmizə səfəri ikitərəfli münasibətlərin inkişafı, dövlət və sahibkarlıq subyektləri arasında iqtisadi layihələrin icrası, biznes fəaliyyətinin genişləndirilməsi, sənaye, infrastruktur və nəqliyyat sahələrində işbirliyinin təşviqi baxımından mühüm iqtisadi hadisə kimi dəyərləndirilə bilər. Səfərin yekununda əldə edilmiş razılaşmalar və mübadilə olunan sənədlər Azərbaycan-Çexiya iqtisadi tərəfdaşlığının möhkəmləndirilməsinə və şaxələndirilməsinə dərin töhfə verəcək.

***E.CƏFƏRLİ***

# Sülhün Səsi: İlham Əliyevin Qlobal Liderlik Missiyası

Sülh və sabitliyin qorunması müasir dünyanın ən vacib çağırışlarından biridir. Bu kontekstdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev beynəlxalq səviyyədə sülhün təşviqinə verdiyi töhfələrə görə "Sülh və Barışıq üçün Gernika mükafatı"na layiq görülməsi ilə bir daha diqqət mərkəzinə düşmüşdür. Bu mükafat yalnız fərdi nailiyyətlərin deyil, eyni zamanda həyata keçirilən ardıcıl və məqsədyönlü siyasətin beynəlxalq miqyasda tanınmasının göstəricisidir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan son illərdə regionda dayanıqlı sülhün təmin olunması istiqamətində mühüm addımlar atmışdır. Diplomatik təşəbbüslər, çoxtərəfli əməkdaşlıq və beynəlxalq hüquqa əsaslanan yanaşmalar ölkənin xarici siyasət kursunun əsasını təşkil edir. Bu siyasət yalnız milli maraqlara xidmət etmir, həm də regionda və daha geniş coğrafiyada sabitliyə töhfə verir.

Gernika mükafatı simvolik baxımdan da xüsusi əhəmiyyət kəsb edir. Tarixən münaqişələrin və faciələrin şahidi olmuş Gernika şəhərinin adı ilə bağlı olan bu mükafat, sülhün və barışığın təşviqi istiqamətində göstərilən səylərin yüksək qiymətləndirilməsidir. Belə bir mükafata layiq görülmək, İlham Əliyevin siyasi liderliyinin humanist dəyərlərə söykəndiyini və beynəlxalq ictimaiyyət tərəfindən qəbul edildiyini təsdiqləyir.

Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən beynəlxalq forumlar, humanitar layihələr və mədəniyyətlərarası dialoq platformaları da bu siyasətin mühüm tərkib hissəsidir. Bu təşəbbüslər xalqlar arasında qarşılıqlı anlaşmanın güclənməsinə və sülh mühitinin formalaşmasına xidmət edir.

Nəticə etibarilə, Prezident İlham Əliyevin "Sülh və Barışıq üçün Gernika mükafatı" ilə təltif olunması onun qlobal miqyasda sülhün carçısı kimi rolunun növbəti təsdiqidir. Bu, yalnız Azərbaycanın deyil, bütövlükdə regionun və dünyanın gələcəyi üçün ümidverici bir mesajdır.



*V çagırış millət vəkili*
*Dilarə Cəbrayılova*

# Bir ömrün işığında: insanlığa xidmətin ali nümunəsi











Aprelin 28-də Nəsimi rayon İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyası (YAP) Nəsimi rayon təşkilatı və Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının birgə təşkilatçılığı ilə Azərbaycanın görkəmli alimi, Əməkdar elm xadimi, tibb elmləri doktoru, akademik Zərifə Əziz qızı Əliyevanın anadan olmasının 103-cü ildönümünə həsr olunmuş "Bir ömrün işığında: insanlığa xidmətin ali nümunəsi" mövzusunda tədbir keçirilib.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri, Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Tahir Budaqov bildirib ki, Zərifə xanım Əliyevanın həyat yoluna nəzər saldıqda yalnız fədakar bir alimin deyil, eyni zamanda, zəngin mənəviyyata malik nümunəvi bir şəxsiyyətin obrazı canlanır: "Onun həyat fəlsəfəsi elmə sədaqət, insanlığa xidmət və milli-mənəvi dəyərlərə bağlılıq prinsiplərini özündə təcəssüm etdirir. Zərifə xanım Əliyevanın fəaliyyəti yalnız tibb sahəsi ilə deyil, bütövlükdə cəmiyyətin inkişafı ilə sıx bağlı olmuşdur. O, insan sağlamlığının, milli və bəşəri dəyərlərin qorunması, intellektual və vətənpərvər gənc nəslin formalaşmasında əvəzsiz xidmətlər göstərmişdir".

Onun sözlərinə görə, Zərifə xanım Əliyeva göz xəstəliklərinin öyrənilməsi və profilaktikası sahəsində apardığı fundamental tədqiqatlarla oftalmologiya elminin inkişafında yeni bir mərhələnin əsasını qoymuşdur: "Onun elmi nailiyyətləri günümüzdə aktuallığını qorumaqla müasir tibbin inkişafına dəyərli töhfələr verməkdə davam edir. Nümunəvi pedaqoq olan Zərifə xanım Əliyevanın yetişdirdiyi kadrlar bu gün Azərbaycanda və ölkə hüdudlarından kənarda uğurla fəaliyyət göstərirlər".

Tahir Budaqov vurğulayıb ki, Zərifə xanım Əliyeva ailə dəyərlərinə xüsusi önəm verən, övladlarının tərbiyəsinə böyük məsuliyyətlə yanaşan qayğıkeş bir ana kimi yadda qalmışdır: "O, müstəqil Azərbaycan dövlətinin qurucusu, bütün mənalı ömrünü Vətəninin tərəqqisinə həsr etmiş dahi şəxsiyyət, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı, sədaqətli və etibarlı silahdaşı olmuşdur. Məhz belə möhkəm mənəvi dəyərlər üzərində qurulmuş ailədə yetişən cənab İlham Əliyev Ulu Öndərin yoluna yüksək sədaqət nümayiş etdirməklə Azərbaycanı tərəqqi və Zəfər zirvəsinə yüksəltmişdir. O, prinsipial siyasəti ilə qloballaşma prosesinin geniş vüsət aldığı bir dövrdə xalqımızın mənəvi dəyərlərinin qorunması, milli kimliyimizin yaşadılması və ailə institutunun möhkəmləndirilməsi istiqamətində ardıcıl nailiyyətlərə imza ataraq cəmiyyətin sağlam təməllər üzərində inkişafını təmin etmişdir".

Natiq bildirib ki, bu gün dövlət başçısının siyasi iradəsi ilə ölkəmizdə bütün istiqamətlərdə, o cümlədən tibb sahəsində ardıcıl islahatlar həyata keçirilir, səhiyyə sisteminin modernləşdirilməsi, elm və təhsilin davamlı inkişafı üçün mühüm addımlar atılır: "Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşdırılan humanitar layihələr də bu prosesə müstəsna töhfə olmaqla bərabər, Zərifə xanımın zəngin elmi irsinin və ideyalarının yaşadılmasına xidmət göstərir. Xüsusi qeyd etmək istərdim ki, Nəsimi rayonu ərazisində fəaliyyət göstərən Azərbaycan Tibb Universiteti də Zərifə xanım Əliyevanın əsasını qoyduğu ənənələri davam etdirərək yüksək ixtisaslı kadrların - Vətənə ləyaqətlə xidmət edən gənc həkimlərin və tədqiqatçıların formalaşmasında önəmli rol oynayır".

"Şərəfli bir ömür yaşamış Zərifə xanım Əliyevanın işıqlı obrazı həmişə bizimlə olacaqdır. Onun əziz xatirəsi qədirbilən xalqımızın qəlbində əbədi yaşayacaq və zəngin mənəvi irsi nəsillərdən-nəsillərə ötürüləcəkdir", - deyə Tahir Budaqov əlavə edib.

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti, professor Fərhad Bədəlbəyli çıxışında bildirib ki, fədakarlığına, xeyirxahlığına və yüksək intellektinə görə insanların dərin hörmət və məhəbbətini qazanmış Zərifə xanım Əliyeva böyük ziyalı, işıqlı, nurlu şəxsiyyət idi: "Onun mənəvi dünyası olduqca zəngin idi, oftalmologiya elminin inkişafındakı xidmətləri isə əvəzsizdir".

F.Bədəlbəyli Zərifə xanım Əliyevanın sənətə və musiqiyə bağlı olduğunu qeyd edib. Onun sözlərinə görə, sadə və təvazökar insan olan Zərifə Əliyeva hər zaman sənətkarlara qayğı ilə yanaşıb. "Onun ailəsində, evində həmişə musiqi səsi eşidilərdi. Zərifə Əliyevanın bacısı Gülarə Əliyeva məşhur "Dan ulduzu" ansamblını yaratmışdı. Zərifə xanımın özü də pianinoda çox gözəl ifa edirdi. O, Ulu Öndər Heydər Əliyevlə birlikdə tez-tez mədəni tədbirlərə, konsertlərə gələrdi. Mən özümü xoşbəxt hesab edirəm ki, Zərifə xanımı şəxsən tanımışam. Biz onun sənətkarlara diqqətini heç vaxt unutmuruq. Gənclərimiz də bilməlidir ki, tariximizdə belə dəyərli qadınlar olub", - deyə rektor vurğulayıb.

Natiq söyləyib ki, insanların böyük sevgisini qazanmaq, özündən sonra nurlu xatirələr qoymaq çox az adamın taleyinə yazılır: "Akademik Zərifə Əliyevanın ömür kitabında Azərbaycan naminə misilsiz xidmətləri olan görkəmli dövlət xadimlərinin taleyi yaşayır. Zərifə xanım həyatı daim mübarizələrdə keçən Ümummilli Lider Heydər Əliyevlə çiyin-çiyinə addımlayır, çətin günlərdə ona arxa-dayaq olurdu. Bu gün Ulu Öndər Heydər Əliyevin və Zərifə xanımın xalqa məhəbbəti və xidməti Azərbaycan Prezidenti İlham Əliyevin, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətində davam edir".

Çıxış edən Bakı Musiqi Akademiyasının professoru, Xalq artisti, general-mayor Yusif Axundzadə bildirib ki, Zərifə xanım Əliyeva bənzərsiz, işıqlı bir ömür yaşayıb: "Bu işıqdan hamıya - ailəsinə, ətrafında olan hər kəsə, gözünün nurunu itirmiş insanlara pay çatırdı. Onun ömür yolu parlaq səhifələrlə zəngindir".

Y.Axundzadə əlavə edib ki, akademik Zərifə Əliyeva zəngin irs qoyub, öz tədqiqatları ilə Azərbaycan tibb elmini əhəmiyyətli dərəcədə irəliyə aparıb: "Zərifə xanımı xatırlayanda göz önündə mənəvi kamilliyin uca zirvəsinə yüksəlmiş görkəmli elm fədaisi canlanır. Onun simasında nəcib Azərbaycan qadını, vəfalı ömür-gün yoldaşı, fədakar ana obrazını görürük".

Bakı Musiqi Akademiyasının dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Zərifə Əliyevanın bacısı qızı Ayəndə Adilova qeyd edib ki, Zərifə xanım Əliyeva yüksək insani keyfiyyətləri ilə Azərbaycan qadınının ideal obrazını yaradıb: "Zərifə xanım musiqisevər bir insan idi. Onun bacısı, mənim anam Gülarə Əliyeva "Dan ulduzu" instrumental ansamblını yaradandan sonra birlikdə ailə tədbirlərində tez-tez pianinoda ifa edirdilər. Musiqi onların evində daim səslənirdi".

"Oftalmologiya elminə verdiyi töhfələrlə yanaşı, insanpərvərliyi ilə də seçilən Zərifə xanımın həyat yolu bizim üçün parlaq nümunədir", - deyə A. Adilova əlavə edib.

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Sonra konsert proqramı təqdim olunub.



# Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü ilə əlaqədar ağacəkmə aksiyası keçirilib







Aprelin 25-də “Şəhərsalma və Memarlıq İli” çərçivəsində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyası və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin birgə təşkilatçılığı ilə ağacəkmə aksiyası keçirilib.

Aksiya çərçivəsində Abşeron rayonu, “Ceyranbatan” su anbarı ərazisində 1200 ədəd Eldar şamı ağacı əkilib. Eyni zamanda, ağacların əkildiyi məkanda təmizlik işləri aparılıb, ağaclara aqrotexniki qulluq göstərilib.

# Zərifə xanım tibb elmimizin zirvəsində parlayan əbədiyyət Günəşidir

Sədərək kənd İcra Nümayəndəliyində Yeni Azərbaycan Partiyası Sədərək rayon təşkilatının təşkilatçılığı ilə görkəmli oftalmoloq alim, Əməkdar elm xadimi, akademik Zərifə Əliyevanın103-cü ildönümü münasibətilə



“Zərifə xanım tibb elmimizin zirvəsində parlayan əbədiyyət Günəşidir” mövzusunda tədbir keçirilib.

Tədbirdə rayonun idarə və təşkilatlarının, səhiyyə, təhsil və mədəniyyət müəssisələrinin rəhbərləri, Yeni Azərbaycan Partiyasının üzvləri iştirak ediblər.

Əvvəlcə Ümummilli Liderimiz Heydər Əliyev, Zərifə xanım Əliyevanın və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP Sədərək rayon Təşkilatının sədri Arif Qasımov qeyd edib ki, Zərifə xanım Əliyevanın adı Azərbaycanda böyük fəxrlə, sonsuz qürur hissi ilə səslənir: “Ölkəmizdə ana adının ucalığı, ömürgün yoldaşının sədaqəti, nurlu həkimliyin müqəddəsliyi onun adı ilə əbədiləşib. Zərifə xanım tibb elmimizin zirvəsində parlayan əbədiyyat Günəşidir”.

A.Qasımov Zərifə xanım Əliyevanın tibb elmimizin inkişafında müstəsna xidmətlərindən söz açıb: “Zərifə xanım Əliyeva 1942-ci ildə Bakıda orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnistutuna daxil olmuşdu. Onunla bir qrupda, eyni kursda oxuyan məzunların xatirələrində qeyd edildiyi kimi, Zərifə xanım fitri istedada, dərin zəkaya, geniş dünyagörüşünə, yüksək mədəni səviyyəyə malik tələbə olmuşdur. O, tibbi fənlərlə yanaşı, digər fənlərə də eyni dərəcədə maraq göstərir, hər tərəfli biliyə malik həkim kimi formalaşırdı. Dünya şöhrətli alim Zərifə xanım 1960-cı illərə kimi Azərbaycanda yaşayan insanların traxoma xəstəliyindən çəkdiyi əzabdan əlilikdən qurtarmaq üçün fədakar əmək sərf etmişdi. O cümlədən Muxtar Respublikamızda dəfələrlə həkim birqadası ilə birlikdə ayrı-ayrı traxoma xəstəliklərini müalicə etmişdir və müalicənin nəticəsi olaraq Azərbaycanda o, cümlədən Naxçıvan Muxtar Respublikasında kökü kəsilmişdir. Zərifə xanım böyük və şöhrətli alim olmaqla bərabər, eyni zamanda böyük insan, böyük şəxsiyyət, demokratik ruhlu, Azərbaycan torpağına və onun mənəvi dəyərlərinə dərin tellərlə bağlanan nurlu şəxsiyyət idi”.

“Ailə cəmiyyətin özüdür. Ailənin ən etibarlı dayağı-ocağın qoruyucusu isə Zərifə xanım kimi həyat yoldaşı, ana və məhəbbət simvoludur. O, ulu öndər Heydər Əliyevin təkcə həyat yoldaşı yox, həm də silahdaşı idi. Bu ailə böyük məhəbbət bünövrəsi üstündə qurulmuşdu”-deyən Arif Qasımov vurğulayıb ki, Akademik Zərifə Əliyevanın yaşadığı mənalı ömür yolu hər bir Azərbaycan vətəndaşı üçün həyat və mənəviyyat dərsi, kamillik,



müdriklik məktəbidir. Nə qədər ki, Azərbaycan xalqı var, Azərbaycan elmi, mədəniyyəti var, Zərifə xanım həmişə bizimlə olacaq, onun parlaq xatirəsi daim anılacaq, qədirbilən xalqımızın qəlbində əbədi yaşayacaqdır.

Tədbirdə çıxış edən Sədərək Rayon İcra Hakimiyyətinin başçısının müavini, İctimai-siyasi və hümanitar məsələlər şöbəsinin müdiri Pərviz Ağayev qeyd edib ki, zəngin mənəviyyata sahib əsl ziyalı kimi mənalı ömür yolu keçmiş Zərifə xanım Əliyeva geniş elmi fəaliyyəti ilə ölkəmizdə tibb sahəsinin, xüsusilə oftalmologiyanın inkişafına əhəmiyyətli töhfələr vermişdir.

Zərifə Əliyevanın çoxcəhətli fəaliyyəti hər zaman yüksək qiymətləndirilmiş, oftalmologiya aləmində ən yüksək akademik Averbax adına mükafata layiq görülmüşdür. Zərifə Əliyeva bu mükafata layiq görülmüş ilk qadındır.

Tədbirdə Naxçıvan MR Ali Məclisinin deputatları, Zeynəb Quliyeva, Mahir İsmayılov və Sədərək rayon Mərkəzi Xəstəxanasının baş həkimi Coşqun Babayev çıxış ediblər.

# 701,6 milyon avro...

## Qara Dəniz Ticarət və İnkişaf Bankının Azərbaycana ayırdığı sərmayənin həcmi artıb

Qara Dəniz Ticarət və İnkişaf Bankı (QDTİB) Azərbaycanda öz maliyyələşmə portfelini daha da böyüdüb. Bank yeni layihənin maliyyə təchizatını təmin etməklə, ölkəmizə daha 94 milyon avro ayırıb. Bununla da QDTİB-in Azərbaycana ayırdığı sərmayənin ümumi həcmi 701,6 milyon avroya çatıb. Bu, region ölkələri içərisində ən böyük investisiya yatırımları deməkdir. Hazırda bankın Azərbaycandakı əsas portfelinin tərkibinə kiçik və orta sahibkarlığa dəstək (47,5 faiz), enerji (35 faiz), daşınmaz əmlak (8,4 faiz), istehlak malları (4,8 faiz) və sənaye (4,4 faiz) üzrə maliyyələşmə daxildir.

**Kredit tərəfdaşı və aparıcı səhmdar**

Qara Dəniz Ticarət və İnkişaf Bankı Azərbaycanın iqtisadi inkişafına və Qara dəniz regionunda iqtisadi əməkdaşlığın möhkəmləndirilməsinə xüsusi töhfə verən beynəlxaql maliyyə institutu kimi tanınır. Bank Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlər - Albaniya, Azərbaycan, Ermənistan, Bolqarıstan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya Federasiyası, Türkiyə, Yunanıstan və Ukrayna tərəfindən yaradılıb. QDTİB iqtisadi inkişafı və regional əməkdaşlığı dəstəkləyir, üzv ölkələrdə dövlət və özəl sektorlarda layihələr üçün kreditlərin verilməsi, kredit xətlərinin açılması, investisiyaların və zəmanətlərin verilməsində və ticarətin maliyyələşdirilməsində iştirak edir.

Bank fəaliyyətə başladığı vaxtdan etibarən Azərbaycanda maliyyələşdirdiyi layihələrlə ölkədə özəl sektorun inkişafına və maliyyə sektorunun gücləndirilməsinə dəstək verib, eləcə də iqtisadi islahatların və formalaşdırılmış əlverişli investisiya mühitində xüsusi rol oynayıb. “Şahdəniz” kimi strateji əhəmiyyətli enerji layihələrində iştirak edib, eyni zamanda, kiçik və orta biznesə davamlı dəstəyini artırıb. Ümumilikdə, Qara Dəniz Bankının Azərbaycana yönəltdiyi investiyaların həcmi ümumi kredit portfelinin təxminən 10 faizlik resursu həcmindədir.




**7-ci ən böyük səhmdar**

QDTİB Azərbaycanda yerli valyutada istiqraz buraxan ilk beynəlxalq maliyyə institutu olub və Bank özəl sektorun maliyyələşdirilməsini dəstəkləmək məqsədilə 2019-cu ildə Bakı Fond Birjasında korporativ istiqrazlar yerləşdirib. Hazırda Azərbaycan QDTİB-nin təsisçi üzvlərindən biri kimi bu təsisatda fəal yer alır və bankın kapitalının artırılması prosesinə öz töhfəsini verməkdədir. QDTİB-in səhm kapitalında ölkəmiz 5 faiz paya malikdir ki, bu, 7-ci ən böyük səhmdarlıq statusu deməkdir. QDTİB-nin Rəhbərlər Şurasının 2021-ci ilin oktyabrında keçirilən Xüsusi Toplantısında bankın abunə kapitalının artırılmasında Azərbaycan da mühüm rol oynayıb, ümumi dəyəri 41 milyon avro təşkil edən 36,6 min səhmin 12,3 milyon avro məbləğində olan hissəsi ölkəmiz tərəfindən əldə edilib. Bu fakt ölkəmizin investor kimi beynəlxalq nüfuzunun artmasına müsbət təsir göstərməkdədir.

Hazırda tərəflər gələcək əməkdaşlıq planı çərçivəsində özəl sektorun inkişafının maliyyələşdirilməsi, kiçik və orta biznesin və maliyyə institutlarının dəstəklənməsi, regional ticarətin və nəqliyyat-logistika bağlantısının təşviqi, həmçinin dayanıqlı inkişaf və iqtisadi şaxələndirmə ilə bağlı layihələrin dəstəklənməsini nəzərdə tutur.

**Əməkdaşlığın yeni gündəliyi - “yaşıl enerji” və “yaşıl maliyyə”**

Qara Dəniz Bankı ilə Azərbaycan arasında əməkdaşlığın müasir gündəliyində KOB-ların inkişafı və sahibkarlıq subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının artırılması, “yaşıl iqtisadiyyat”ın təşviqi məqsədilə korporativ və fərdi müştərilərin ehtiyaclarının kreditləşdirilməsi və digər prioritetlər daxildir. Həmçinin, işğaldan azad edilmiş ərazilərdə biznesə dəstək və müasir sənaye-emal zəncirinin qurulmasından bankın donorluğu istisna olunmur. SOCAR-la “yaşıl enerji” üzrə layihələrin həyata keçirilməsi də danışıqlar mövzusundadır. Bir neçə ay əvvəl Bakıda olan bankın vitse-prezidenti Draqoş-Paul Ungureanu işğaldan azad edilmiş ərazilərin bərpası və bərk məişət tullantılarının idarə olunması layihələrinin maliyyələşdirilməsində iştirakın mümkünlüyünü vurğulayıb.

QDTİB ölkəmizlə yeni əməkdaşlıq mərhələsində “yaşıl maliyyələşmə” və investisiyaların artırılmasını da istiqamətlərdən biri hesab edir. Bu məqsədlə Azərbaycanın maliyyə institutları, o cümlədən banklarla “yaşıl layihələr” üzrə müqavilə imzalanması nəzərdə tutulur. Bankın rəhbərliyi COP29 çərçivəsində qlobal alyansın razılaşdırdığı iqlim maliyyəsi strategiyasına da müsbət yanaşaraq iqlim donorluğunda imkanlarının səfərbər ediləcəyini də bildirib. Bu çərçivəyə əsasən, Azərbaycanın “yaşıl maliyyə” üzrə investisiya prioritetlərinə QDTİB-in maliyyə dəstəyi verəcəyi ehtimal olunur.

Yeri gəlmişkən, bankın 2026-cı ilin iyul ayında Bakıda keçiriləcək növbəti illik toplantısının regional maliyyə əməkdaşlığının daha da möhkəmləndirilməsi baxımından mühüm platforma olacağı proqnozlaşdırılır. Strateji plana əsasən, bankın kredit portfelinin artırılmasına aparıcı səhmdarlardan biri kimi Azərbaycanın da rolunun artacağı, eləcə də kredit portfelində əlavə maliyyə resursları alacağı ehtimal edilir.

*E.CƏFƏRLİ*

# Mərkəzi Asiya-Xəzər-Avropa "yaşıl dəhlizi" reallaşır

Qazaxıstan Prezidenti Qasım-Jomart Tokayev "Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında "yaşıl enerji"nin istehsalı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Sazişin ratifikasiya edilməsi barədə" Qanunu təsdiqləyib. Sənəd təmiz enerji sahəsində strateji tərəfdaşlığın inkişafına yönəlmiş birgə addımları təşviq edən hüquqi çərçivə hesab edilir. Belə ki, ekoloji təmiz hidrogen və ammonyakın istehsalı və ticarəti üzrə birgə layihələrin həyata keçirilməsi, eləcə də bərpaolunan elektrik enerjisinin etibarlı transsərhəd bağlantıların yaradılması sazişin əsas detalları sırasında yer alır.

Qeyd edək ki, Azərbaycan, Qazaxıstan və Özbəkistan 2 il əvvəl "yaşıl elektrik enerjisi"nin sabit ötürülməsi üçün texniki və kommersiya parametrlərini müəyyən etmək, müasir enerji səmərəli texnologiyaları tətbiq etmək və enerjinin, o cümlədən Avropa istiqamətində ixracı üçün infrastrukturu inkişaf etdirmək barədə razılığa gəliblər.2024-cü ildə Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə imzalanan Qarabağ Bəyannaməsinin əsas bəndlərindən biri də həmin niyyəti əks etdirir. Belə ki, sazişdə əsas hədəflərdən biri kimi üzv ölkələr arasında bərpa olunan enerji sahəsində birgə əlaqələrin vahid iqtisadi blokda birləşdirilməsi öz əksini tapıb. Bəyannamənin 11-ci bəndində TDT ölkələri bərpaolunan enerji və enerji səmərəliliyi sahələrində əməkdaşlığın inkişafı da daxil olmaqla enerji sahəsində strateji tərəfdaşlığın daha da artırılması və bu çərçivədə Azərbaycan-Qazaxıstan-Özbəkistan enerji sistemlərinin qarşılıqlı əlaqələndirilməsinə (Yaşıl dəhliz) dəstəyini ifadə edib. Sənəddə, həmçinin, türk dövlətləri tərəfindən bərpaolunan geniş enerji potensialının imkanları nəzərə alınaraq "yaşıl enerji"nin üzv dövlətlər və üçüncü ölkələr də daxil olmaqla ixracı və ticarəti üçün geniş enerji sistemlərinin inkişaf etdirilməsi bəyan olunub.



## Dörd qardaşın enerji həmrəyliyi

"Azərbaycan, Qazaxıstan və Özbəkistanın enerji sistemlərinin qarşılıqlı əlaqəsi üzrə Əməkdaşlıq Memorandumu"nun imzalanması ilə enerji əməkdaşlığı yeni hüquqi mərhələyə daxil olub. "Yaşıl enerji" resurslarının istehsalı və emalının növbəti zənciri nəql infrastrukturunun yaradılmasıdır. Bu proses də Azərbaycanın təşəbbüsü ilə irəliləməkdədir. 2024-cü ildə Azərbaycan, Rumıniya, Gürcüstan və Macarıstan arasında yeni enerji ənəkdaşlığı üzrə əməkdaşlıq sazişinin və birgə müəssisənin yaradılmasına dair memorandumun imzalanması ilə "yaşıl enerji"nin ixracında tranzitlərin birləşdirilməsi və vahid kabelin yaradılması üçün hüquqi çərçivə formalaşıb. Budapeştdə Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında Yaşıl Enerji Dəhlizi üzrə Birgə Məktubun imzalanması isə "Yaşıl Enerji Dəhlizi Enerji Şirkəti"nin (GECO) fəaliyyətinin yeni mərhələyə daxil olmasını təmin edib. Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında qurulmuş üçtərəfli "yaşıl enerji" koalisiyası ötən il Qırğızıstanın qoşulmasından sonra 4 türk dövlətinin enerji həmrəylini formalaşdırıb.

Anlaşmaya əsasən, istehsal və emal edilən enerjinin daxili enerji şəbəkələrinə yönəldilməsi və Qara dəniz sualtı elektrik verilişi xətti ilə Avropaya nəqli nəzərdə tutulur. Belə ki, enerji sazişi Xəzər dənizində qiymətləndirilən 500 QVt-dan çox külək enerjisinin Azərbaycan üzərindən Avropaya nəqlini nəzərdə tutur. Hazırda Xəzər dənizi bərpa olunan enerji mənbələri üzrə ən böyük ehtiyatlara malikdir. Təkcə Xəzər dənizinin Azərbaycana aid hissəsində külək enerji istehsalı üçün təxminən 157 QVt güc vardır. Eləcə də Qazaxıstan sektorunda da günəş və külək stansiyaları üçün zəngin resurslar var ki, hazırda bu sahədə infrastrukturlar yaradılır. Bu ölkənin külək potensialı ildə 1 trilyon 820 milyard kilovat/saatdan çoxdur, günəş enerjisi isə 1 trilyon kilovat/saatdır. Yaxud Özbəkistanın Asiya çöllərində günəş enerjisi üçün resurslar xeyli böyükdür, külək enerjisinin potensialı 520 QVt, günəş enerjisinin potensialı isə 2 trilyon 58 milyard kVt təşkil edir. Bu isə Mərkəzi Asiya və Xəzər regionları arasında böyük bir yaşıl gücün səfərbər olunması üçün imkanları artırır.

## Cənub Qaz Dəhlizinin "yaşıl tranziti"...

Hazırda dünyada sürətli enerji keçidi həyata keçirilir. Müxtəlif regionlarda artan geosiyasi risklər və logistika dəhlizlərində qırılmalar dayanıqlı enerji təchizatında da problemlər yaradır. Bu kontekstdə qitə dövlətləri ənənəvi enerjidən alternativ enerjiyə keçid üçün strateji kurs üzrə fəallığı artırmaqdadır. Bir müddət əvvəl Avropa Komissiyası təmiz enerjiyə keçid üçün yol xəritəsini elan edib və ittifaq ölkələrini təcili addımlar atmağa çağırıb. Məhz bu baxımdan alternativ enerji marşrutu kimi əsas diqqət Mərkəzi Asiya və Xəzər bölgəsinə yönəlib.

Azərbaycan Mərkəzi Asiya-Xəzər-Avropa və yaxud "Qara dəniz kabeli" adlandırılan layihəni həm də Cənub Qaz Dəhlizində yer alan bütün ölkələrin ortaq ailəsi kimi görür və siyasəti də bu istiqamətdə irəlilədir. Bir müddət əvvəl Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası Nazirlərinin və Yaşıl Enerji Məşvərət Şurasının iclaslarında "yaşıl enerji" sahəsində vacib əməkdaşlığın ən nəhəng platforması kimi dəyərləndirilib. Bu layihə çərçivəsində "yaşıl hidrogen"lə bağlı ölkələrarası dialoqun artırılması qərara alınıb. Eyni zamanda, Azərbaycan və Avropa İttifaqı daxil olmaqla 24 ölkə, 8 beynəlxalq təşkilat və 44 şirkətin təmsil olunduğu tədbirdə "yaşıl enerji" sahəsində əməkdaşlığa dair sənədlər imzalanıb.

Beləliklə, "Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında yaşıl enerjinin istehsalı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Sazişin ratifikasiya edilməsi barədə" Qanunun imzalanması Mərkəzi Asiya-Xəzər bölgəsində enerji arxitekturasını qurmaq yönündə növbəti addımdır. Azərbaycan tranzit ölkə olaraq özünün istehsal etdiyi enerji ilə yanaşı, Mərkəzi Asiyadan daxil olan enerjini də Avropaya ötürəcək. Xəzər və Qara dənizin dibi ilə çəkiləcək elektrik kabelinin nəql marşrutu isə Avropa ölkələrini nəzərdə tutur. Bu, "yaşıl enerji" dəhlizi tam olaraq real bir enerji layihəsi olmalqa, regionda sabitliyin və həmrəyliyin simvoluna çevriləcək.

***E.CƏFƏRLİ***

# Eçmiədzin Kilsəsinin yalanı...

Ermənistan 30 illik işğal siyasəti dövründə Azərbaycanın tarixi, mədəni və dini irsinə qarşı vandalizm həyata keçirib. Buna paralel olaraq isə işğal altında olan ərazilərimizdə qanunsuz olaraq müxtəlif tikinti işləri aparıb. Belə tikililər Xankəndi şəhərində də inşa edilib.Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra ermənilərin qanunsuz əməllərinin aradan qaldırılması istiqamətində müvafiq addımlar atılır.Lakin erməni tərəfi dövlətimizin qanuni fəaliyyətini ləkələmək üçün əsassız hay-küy qaldırıb. Onlar beynəlxalq ictimai rəydə guya Azərbaycanın Qarabağda "erməni irsini məhv etməsi" ilə bağlı qara piar aparırlar. Eçmiədzin Kilsəsinin aprelin 23-də yaydığı bəyanat da bunun göstəricisidir.

## QMİ: Eçmiədzin Kilsəsinin bəyanatı düşmənçiliyin təzahürüdür

Qafqaz Müsəlmanları İdarəsi (QMİ) isə Eçmiədzin Kilsəsinin iddialarına cavab verib. QMİ-nin bəyanatında bildirilib ki, Azərbaycanın Xankəndi şəhərində iki qanunsuz tikilinin sökülməsi ilə bağlı Eçmiədzin Kilsəsinin 23 aprel tarixli bəyanatı düşmənçiliyin və dezinformasiyanın bir təzahürüdür. QMİ bəyan edib ki, Azərbaycanın tarixi, dini və mədəni abidələrinin işğal zamanı onilliklər boyu dağıdılmasına və təhqir edilməsinə səssiz qalan Eçmiədzinin hazırda iki ölkə arasında normallaşma prosesi gedən bir həssas dövrdə Azərbaycana qarşı əsassız ittihamlarla çıxış etməsi məsələnin siyasiləşdirilməsinə atılan bir uğursuz cəhddir: "Azərbaycan ərazilərinin işğalı zamanı Xankəndidə qanunsuz inşa edilmiş iki tikilinin sökülməsi heç bir halda dini və ya mədəni irsin məhv edilməsi kimi təhrif edilə bilməz. Belə ki, 2023-cü ildə Azərbaycan öz əraziləri üzərində dövlət suverenliyini tam bərpa etdikdən sonra işğalın simvolları olan bu qanunsuz tikililəri bütün bu müddət ərzində mövcud vəziyyətdə saxlayıb. Bununla belə, son aylar ərzində öz doğma yurdlarına kütləvi şəkildə qayıdan keçmiş məcburi köçkünlər işğal dövründən əvvəl bu ərazilərdə mövcud olmayan bütün tikililərin sökülməsinə dair dəfələrlə dövlət orqanlarına və yerli məhkəmələrə müraciət ediblər. Məlumdur ki, beynəlxalq humanitar hüquqa əsasən, işğalçı dövlət tərəfindən işğal edilmiş ərazidə razılıq olmadan inşa edilmiş tikililər təyinatından asılı olmayaraq qanunsuz hesab olunur və bir qayda olaraq işğalçı dövlətin hesabına sökülməlidir. Məhz bu səbəbdən Birinci Qarabağ müharibəsi zamanı azərbaycanlıların qətlə yetirildiyi və qovulduğu bu ərazilərdə sonradan qanunsuz inşa edilmiş bütün tikililərin sökülməsinə həm hüquqi, həm də mənəvi əsas var".

## Azərbaycan tolerant ölkədir

Qeyd olunub ki, Azərbaycan məscidlərin, kilsələrin və sinaqoqların yan-yana yerləşdiyi nadir ölkələrdən biridir ki, bu da xalqımızın dərin köklərə malik dini tolerantlıq mədəniyyətini və bütün dinlərə hörmətini nümayiş etdirir. Əsrlər boyu Azərbaycanda pravoslav, katolik və yəhudi icmaları da daxil olmaqla, müxtəlif dinlərə məxsus ibadət yerləri və icmalar sərbəst fəaliyyət göstərib. Bu gün də bu ənənəyə sadiq qalaraq Azərbaycan dövləti işğal dövründə dağıdılmış və təhqirə məruz qoyulmuş dini və mədəni abidələri öz hesabına bərpa edir. Bunların sırasında Şuşada yerləşən Qazançı kilsəsinin yenicə bərpa edilməsini, habelə bütün münaqişə boyunca Bakıda yerləşən erməni kilsəsinin dövlət tərəfindən mühafizə edilməsini xüsusilə vurğulamaq lazımdır. Ümumilikdə, ölkə ərazisində müxtəlif konfessiyalara məxsus olan ibadət yerlərinin davamlı şəkildə qorunub saxlanılması, onların bərpa edilməsi və mühafizəsi hər zaman dövlətimizin və cəmiyyətimizin dini plüralizmə hörmətini bariz şəkildə nümayiş etdirib.

Eyni zamanda, diqqətə çatdırılıb ki, Azərbaycanda əsrlər boyu mövcud olan bu reallığı Eçmiədzin tərəfindən belə bir həssas dövrdə təhrif etmək cəhdləri yalnız regionda davamlı sülhə yönəlmiş səyləri sarsıtmağa xidmət edir. Keçmişdən qalan siyasi təxribatlara əl atmaq təcrübəsinə və bölgədə qalıcı sülhün bərqərar olmasının qarşısının alınmasına yönəlmiş bu kimi cəhdlərə birdəfəlik son qoyulmalıdır.

Qafqaz Müsəlmanları İdarəsinin bəyanatından da göründüyü kimi, Azərbaycan hər hansı qanuni tikililərə zərər yetirməyib. Ermənilər isə vaxtilə işğal olunmuş ərazilərimizlə yanaşı indiki Ermənistan ərazisində Azərbaycan xalqına məxsus olan mədəni, tarixi və dini abidələri məhv edib. Azərbaycanlılar bir vaxtlar mütləq əksəriyyət təşkil etdikləri indiki Ermənistandan tamamilə qovulublar. Bundan sonra sözügedən dağıntılar daha kütləvi hal alıb. Ermənistan hökuməti Azərbaycanın maddi və qeyri-maddi mədəni irsini bilavasitə məqsədli şəkildə və azərbaycanlılara qarşı etnik ayrı-seçkiliyi təşviq edən təbliğat aparmaqla məhv edib. Dağıntı Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzündən əvvəl, işğal zamanı və ondan sonrakı dövrdə baş verib. Yəni, Ermənistandakı Azərbaycanın mədəni irsinin demək olar ki, hamısı hərbi əməliyyatların təsiri olmadan, əvvəlcədən planlaşdırılmış şəkildə məhv edilib. Başqa sözlə, Azərbaycan mədəni irsinin məhv edilməsinin "hərəkətverici qüvvəsi" Ermənistan hökumətinin monoetnik və tək-mədəniyyətli məkanın yaradılmasına yönəlmiş sistematik irqi ayrı-seçkilik siyasəti olub və təəssüf ki, bu mənfur hədəfləri reallığa çevrilib.

## Təpəbaşı məhəlləsi nadir tarixi nümunədir

Ermənistanın azərbaycanlıların mədəni irsinə qarşı törətdiyi qanunsuzluqlara irs nümunələrinin mənimsənilməsi və təhrif edilməsi də daxildir. Ermənistanda salamat qalmış yeganə məscid olan paytaxt İrəvandakı Göy Məscid qəsdən yanlış şəkildə "fars məscidi" kimi təqdim edilir. Əslində, məscidi inşa edən və əsrlər boyu orada ibadət edənlər o vaxt şəhərdə mütləq əksəriyyəti təşkil etmiş azərbaycanlılar olublar. Ermənistan hökuməti orada Azərbaycan mədəniyyətinin son izlərini silməkdə davam edir.

İrəvan şəhərinin Təpəbaşı məhəlləsi də şəhərin tarixi mərkəzinin bu günə qədər gəlib çatmış yeganə parçasıdır. Bu məhəllə XVII əsrdən bu günə qədər İrəvanın tarixi yaddaşını özündə saxlayır. Tarixən azərbaycanlıların məskunlaşdığı Təpəbaşı məhəlləsi indi məhv olmaq təhlükəsi altındadır. XIX əsrin I yarısında Təpəbaşı hissəsində yerləşən küçə və məhəllələrin adları Azərbaycan adları idi. Məsələn, Dərəkənd, Axund, Xan bağları, eləcə də Əsəd bəy, Adalyar, Təpəbaşı, İmarət və Daşlı küçələrini sadalamaq olar. Təpəbaşı öz memarlığı və tarixi ilə Azərbaycan tarixinin bir hissəsini təşkil edir.

Bunu İrəvan şəhərinin sonrakı dövrlərə aid planlarında da görmək mümkündür. Belə ki, 1831-1832-ci illərə aid kameral təsvirlər göstərir ki, şəhərin Təpəbaşı hissəsindəki məhəllə və küçələr sonrakı dövrlərdə də eyni adla və eyni etnik tərkiblə qalıb. Təpəbaşı hissəsində mövcud olan küçə adları XX əsrin əvvəllərində də Azərbaycan dilində adlandırılırdı. Bütün bunları dövrün arxiv sənədləri də təsdiqləyir. Eçmiədzin kilsəsi qərəzli bəyanatlar səsləndirmək əvəzinə, bütün bunlara cavab versə yaxşı olar. Amma yəqin ki, kilsə tarixi həqiqətlərin qarşısında susmaqla kifayətlənəcək.

***Nardar BAYRAMLI***

# Gizli danışıqlar...

## İran ilə ABŞ arasında təmas davam edir?

ABŞ-İran danışıqlarının ikinci raundu baş tutmadı - birinci mərhələdə baş verən anlaşılmazlıqlar, ortaq mövqenin tapılmaması və güzəştlərin "səsləndirilməməsi" müzakirələrin davamlılığına imkan vermədi. Qeyd edək ki, bir neçə gün öncə, ABŞ prezidenti Donald Tramp İranla danışıqlar aparmaq üçün nümayəndə heyətləri göndərməyəcəyini açıqlamışdı. "Əgər onlar danışmaq istəsələr, bizə gələ və ya zəng edə bilərlər", - deyə Tramp Fox News-a verdiyi müsahibədə bildirmişdi: "Əgər onlar danışmaq istəsələr, biz də danışa bilərik. Amma biz insanları görüşmək üçün 18 saatlıq səfərə göndərməyəcəyik".

Vurğulayaq ki, Tramp İslamabadda ABŞ-İran danışıqlarını təşkil edən Pakistana böyük hörmətini bildirmişdi və qeyd emişdi ki, Pakistan tərəfi prosesdə iştirak etməyə davam edəcək. Amerika lideri İranın nüvə silahına sahib ola bilməyəcəyini bir daha təkrarlamışdı: "Ona görə də istəsələr, bizə zəng edə bilərlər. Amma yenə də, onlar razılaşmanın nə olduğunu bilirlər. Bu çox sadədir: onlar nüvə silahına sahib ola bilməzlər. Əks halda, görüşmək üçün heç bir səbəb yoxdur".

Yeri gəlmişkən, İran ABŞ-a münaqişənin tənzimlənməsi ilə bağlı yeni təklif irəli sürmüşdü - Tehranın arzusu Hörmüz boğazının açılması qarşılığında uranın zənginləşdirilməsi məsələsinin danışıqlar predmeti olaraq 3-cü mərhələyə keçirilməsidir.

**Pərdəarxası görüşlər...**

Bu arada məlumatlı mənbələrə istinadən CNN ABŞ-İran danışıqlarında gözlənilməz dönüş barədə məlumat yayıb. Məlumata görə, tərəflər hazırkı silahlı münaqişədən əvvəl mövcud olan vəziyyətə qayıtmaq imkanlarını fəal şəkildə müzakirə edirlər. Bu ideya hazırda diplomatik səylərlə potensial razılaşma üçün əsas yaradıb. Bildirilir ki, vasitəçilər mərhələli həll planını təşviq edirlər. İlk və ən vacib addım qlobal neft və qaz tədarükünün təxminən 20 faizinin keçdiyi kritik bir arteriya olan Hörmüz boğazından sərbəst naviqasiyanın bərpası olmasıdır. Yalnız bu məsələdə status-kvonun bərpasından sonra tərəflər daha mürəkkəb bir məsələyə - İranın nüvə proqramına keçməyi planlaşdırırlar.

Nümayəndə heyətləri arasında rəsmi danışıqların ikinci mərhələsi hələ baş tutmasa da, CNN mənbələri iki gücün real mövqelərinin yaxınlaşdığını bildirib. Bu, diplomatlar arasında ehtiyatlı nikbinlik yaradır. Telekanalın məlumatına görə, qarşıdakı günlər diplomatik həll üçün həlledici ola bilər. Hər iki ölkə ən azı çərçivə sazişi imzalamaq üçün ciddi xarici təzyiq altındadır. Adları açıqlanmayan vasitəçilər boğazın açılmasının texniki aspektləri ilə bağlı mövqelərini birləşdirmək üçün fəal şəkildə çalışırlar.

Buna baxmayaraq, ilkin mərhələ uğurlu olsa belə, ən çətin məsələ - İranın nüvə proqramı həll olunmamış qalır. Tehran uranı zənginləşdirmək hüququnda israr edir, Vaşinqton isə hərbi nüvə imkanlarının tamamilə ləğvini tələb edir. Lakin analitiklər qeyd edirlər ki, tərəflər boğazda status-kvo ilə bağlı razılığa gələ bilsələr, bu, daha mürəkkəb məsələlər üzrə gələcək dialoq üçün presedent yaradacaq. Mümkün ikinci danışıqlar mərhələsinin təfərrüatları hələ açıqlanmayıb.

**Nüvə məsələsi prioritetdir...**

Açıqlanan məlumat politoloqlar tərəfindən birmənalı qarşılanmır. Çünki bəzi media orqanları ABŞ prezidenti Donald Trampın Tehranın müharibəyə son qoymaq üçün son təklifindən son dərəcə narazı olduğu fikrində qətidir. Bir çox mənbələrin açıqlamalarına görə, hazırkı ABŞ administrasiyasının mövqeyi dəyişməz olaraq qalır: istənilən diplomatik irəliləyiş uranın zənginləşdirilməsinə ciddi nəzarət və məhdudiyyətləri əhatə etməlidir.

Aprelin 27-də Ağ Evin mətbuat katibi Kerolin Levitt Donald Trampın yüksək vəzifəli təhlükəsizlik müşavirləri ilə hazırda müvəqqəti atəşkəs altında



olan hərbi münaqişənin həlli üçün yeni İran təklifini müzakirə etdiyini təsdiqləyib. Axios-un məlumatına görə, Tehran özü hələ yeni planın mövcudluğunu təsdiqləməyib. Nəşr ABŞ administrasiyasının rəsmisi də daxil olmaqla üç mənbəyə istinad edib. Nəşr İranın münaqişəyə son qoymaq üçün irəli sürdüyü təklifin Vaşinqton tərəfindən qəbul edilməsinin sual altında olduğunu deyir.

**Rubio: İran regionda dominantlıq axtarır**

Bu arada, ABŞ dövlət katibi Marko Rubio bazar ertəsi günü Fox News-a bildirib ki, nüvə məsələsi mövcud gərginliyin həllində əsas rol oynayır. Rubio Tehranın nüvə proqramı ilə bağlı müzakirələri təxirə salmağa çalışdığı barədə xəbərlərə münasibət bildirib. "Bu vəziyyətdə olmağımızın səbəbi ilk növbədə nüvə məsələsidir", - Rubio vurğulayıb.

Marko Rubio həmçinin bildirib ki, İranda radikal rəhbərliyin mövcudluğu artıq narahatlıq doğurur, lakin daha geniş problem İran hakimiyyətinin təsirini ölkə hüdudlarından kənara genişləndirmək istəyidir. Rubio Tehranın bu məqsədlərinin nüvə silahları ilə birləşdirilməsinin potensial nəticələrinə işarə edib. Dövlət katibi vurğulayıb ki, "Onlar sadəcə İranda dominantlıq axtarmırlar; onlar regionda dominantlıq axtarırlar".

**Əraqçinin Moskva səfəri - güc nümayişi, yoxsa "təhdid?**

Qeyd edək ki, İslamabad görüşünün təxirə salınmasının ardından İranın xarici işlər naziri Abbas Əraqçi Rusiyaya səfər etmişdi. Əraqçi sosial şəbəkələrdə Yaxın Şərqdəki vəziyyətin gərginləşməsi zamanı Moskvaya "dəstəyi və həmrəyliyi" üçün minnətdarlığını bildirib. Əraqçi X platformasında yazıb: "Regionda əhəmiyyətli dəyişikliklər baş verdiyi üçün Rusiya ilə ən yüksək səviyyədə əlaqə qurmaq imkanına sahib olduğum üçün məmnunam. O, əlavə edib ki, son hadisələr İran və Rusiya arasında "strateji tərəfdaşlığın dərinliyini və gücünü təsdiqləyib". Əraqçi paylaşımına Rusiya Prezidenti Vladimir Putin və Rusiya Xarici İşlər Naziri Sergey Lavrovun şəkillərini əlavə edib.

Siyasi şərhçilər Əraqçinin bu addımını ABŞ-a mesaj kimi dəyərləndiririrlər. Bildirilir ki, İran NATO-nun Yaxın Şərqdəki müharibəyə müdaxilə qarşılığında onun da müttəfiqlərinin olduğunu sətiraltı şəkildə qeyd edir. Təsadüfi deyil ki, "Politiko" nəşri Rusiya ilə NATO arasında mümkünq qarşıdurma ilə bağlı yazı paylaşıb. Yazıda, iki tərəifn mümkün toqquşması zamanı oratya çıxacaq mümkün nəticələr təhlil olunub.

**Vens narazıdır - Pentaqon yalan danışır?**

"The Atlantic" isə ABŞ prezident adminstrasiyasının İranla bağlı qapalı görüş keçirdiyini yazıb. Görüşdə ABŞ-ın vitse-prezidenti C.D.Vens Müdafiə Nazirliyinin İrana qarşı müharibəni düzgün təhlil etməməsini, Pentaqonun Amerikanın silah arsenalının tükənməsi ilə bağlı dəqiq məlumat verməməsini tənqid edib. Yaxın Şərq müharibəsinin başlandığı iki ay ərzində fərqli məlumatlar yayılıb. Nəşrə mənbələrin verdiyi məlumata görə, Vens Pentaqonun müharibə haqqında məlumatlarının dəqiqliyini şübhə altına aldığını söyləyib. O, həmçinin ABŞ prezident Donald Trampla müzakirələr zamanı müəyyən raket sistemlərinin mövcudluğu ilə bağlı narahatlıqlarını ifadə edib. Görüşdə Pentaqon rəhbəri Pit Heqset və Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Den Keyn açıq şəkildə Amerika silah ehtiyatlarının kifayət qədər böyük olduğunu bildiriblər və səkkiz həftəlik döyüşdən sonra İran qüvvələrinə dəyən ziyanı fəlakətli adlandırıblar.

Nəşr yazır ki, Vensin öz açıqlamasında Pentaqon rəhbərinin "əla iş gördüyünü" bildirib və Heqsetin Trampla birlikdə ordunun ən yüksək səviyyələrində "müharibə ruhu"nun təmin edilməsi kontekstində fəaliyyətini misal gətirib.

Kəşfiyyat qiymətləndirmələri ilə tanış olan mənbələrə görə, Pentaqon liderlərinin müsbət açıqlamaları natamam bir mənzərədir - onların fikrincə, İran Hərbi Hava Qüvvələrinin üçdə ikisini, raket buraxıcılarının əsas hissəsini və Hörmüz boğazında mina yerləşdirə və gəmiçiliyə mane ola bilən kiçik sürət gəmilərinin əksəriyyətini saxlayır. Rəsmilər və xarici məsləhətçilər bildiriblər ki, "Tomahawk" raketləri kimi tutucu və hücum silahları da daxil olmaqla əsas silahların istifadəsi ciddi çatışmazlıqlara yol açıb. Vens Tramp və digər milli təhlükəsizlik rəsmiləri ilə görüşlərində sursat çatışmazlığı ilə bağlı narahatlığını əvvəllər də bildirib. Strateji Beynəlxalq Araşdırmalar Mərkəzinin məlumatına görə, ötən iki ayda ABŞ-ın müharibədən əvvəlki dörd əsas sursat ehtiyatının yarısından çoxunu "xərclədiyi" ehtamalı çox güclüdür.

**P.İSMAYILOV**

# 80 illik qadağa tarixin arxivində

## Yaponiya silah ixracına qoyulan məhdudiyyətləri aradan qaldırır

Dünyanın sürətlə dəyişən reallıqları fonunda ölkələr və regionlar üçün qarşıya çıxan əsas çağırışlardan biri də adekvat təhlükəsizlik sisteminin qurulması ilə bağlıdır. İzlənilən proseslərdən o qənaət hasil olur ki, dünya bundan sonra heç vaxt əvvəlki kimi olmayacaq. Buna görə də geosiyasi münasibətlərin sürətlə transformasiyası fonunda dövlətlərin özlərinin təhlükəsizlik arxitekturalarını yenidən dizayn etmələri, onun forma və məzmununu fərqli şərtlərlə tənzimləmələri bir zərurət qismində çıxış edir.

### Gündoğar ölkə siyasətini dəyişir

Özünün təhlükəsizlik arxitekturasında müəyyən korrektələr etməyə qərar verən dövlətlər sırasında gündoğar ölkə - Yaponiya da var. Tokio 80 illik qadağanı tarixin arxivinə göndərir. Söhbət Yaponiya hökumətinin ölümcül silahlar da daxil olmaqla, silah ixracına qoyulan məhdudiyyətləri aradan qaldıraraq Müdafiə Avadanlıqlarının Transferi üzrə Üç Prinsip sənədinə dəyişiklikləri təsdiqləməsindən gedir. Verilən məlumatlara görə, silah ixracına qoyulan qadağanın aradan qaldırılması Yaponiyanın hazırkı qlobal transformasiyalara adekvat hazırlanan təhlükəsizlik konsepsiyasının tərkib hissəsidir. "Müdafiə Avadanlıqlarının Transferi üçün Üç Prinsip" adlanan sənədin yenidən nəzərdən keçirilməsinə dair qərarı Nazirlər Kabinetinin katibi Minoru Kihara açıqlayıb.

Öz növbəsində Yaponiyanın Baş naziri Sanae Takaiçi "X" platformasındakı paylaşımında bildirib: "Heç bir ölkə sülhü və öz təhlükəsizliyini təkbaşına müdafiə edə bilməz və müdafiə avadanlıqlarında bir-birini dəstəkləyən tərəfdaş ölkələrə ehtiyac var".

Takaiçi hökuməti tərəfindən təsdiqlənən düzəliş hərbi ixracatın əksər hissəsini xilasetmə, nəqliyyat, xəbərdarlıq, müşahidə və minatəmizləmə avadanlıqları ilə məhdudlaşdıran beş ixrac kateqoriyasını aradan qaldırır. Bunun əvəzinə, nazirlər və rəsmilər təklif olunan hər bir razılaşmanın mümkünlüyünü qiymətləndirəcəklər. Yaponiya özünün üç ixrac prinsipini qoruyub saxlayacaq ki, bu da onun ciddi yoxlamalar, malların üçüncü ölkələrə ötürülməsinə nəzarət və münaqişələrdə iştirak edən tərəflərə silah satışına qadağa qoymaq öhdəliklərinə uyğundur.

Bütün izahlar öz yerində. Ancaq rəsmi Tokionun silah ixracına məhdudiyyətləri aradan qaldırmağa qərar verməsinin ölkənin hərbi sənayesini gücləndirmək üçün daha çox həcmdə maliyyə cəlb etmək istəyindən və ehtiyacından qaynaqlandığı da ortadadır. Daha dəqiq ifadə etsək, hazırda bu amil Tokio üçün bir vazkeçilməz şərt qismində çıxış edir. Sirr deyil ki, Yaponiya yüksək texnologiyaları istehsalata, o cümlədən də hərbi sənayeyə uğurla tətbiq edən ölkələr sırasında yer alır. Ölkənin əqli və mühəndislik potensialı bu sahədə daha yüksək hədəflərə çatmağa imkan verir. Lakin bundan ötrü böyük həcmlərdə maliyyənin təmin edilməsinə ehtiyac var. Daxili ehtiyacın qarşılanmasına yönələn istehsalla bunu təmin etmək mümkünsüzdür. Yaponiyada uzun müddət silah ixracına qoyulan məhdudiyyətlər hərbi istehsalın kiçik həcmdə qalmasına səbəb olub. Bu isə xərclərin artmasına və gəlirliliyin azalmasına gətirib çıxarıb, nəticədə bir sıra şirkətlər müdafiə sənayesindən çəkilib. Dünya bazarında isə müasir, qabaqcıl silahlara tələbat getdikcə artır. Beləliklə, Yaponiya silah ixracına məhdudiyyətləri aradan qaldırmaqla ölkəyə daha çox maliyyə cəlb etməyi, son nəticədə isə hərbi sənayesinin imkanlarını daha da genişləndirməyi hədəfləyir. Qeyd edək ki, son illərdə Yaponiya müdafiə xərclərini davamlı olaraq artıraraq ÜDM-in 2 faizinə çatdırıb və Takaiçi hökumətinin bu il yeni təhlükəsizlik strategiyasında daha çox artımın olacağı gözlənilir. Artıq Yaponiya parlamenti 2026-cı maliyyə ili üçün büdcəni təsdiqləyib və müdafiə xərcləri ilk dəfə 9 trilyon yen (təxminən 56,7 milyard dollar) həddini keçib.

### Hərbi məhsulların ixrac siyahısında hansı ölkələrin adları yer alır?

Verilən məlumatlara görə, ixrac məhdudiyyətlərinin aradan qaldırılması ilk növbədə indiyədək Tokio ilə razılaşdırılmış şərtlər altında silah alqı-satqısına dair müqavilələr imzalamış tərəfdaş ölkələrə şamil ediləcək. Yaponiyanın hazırda 17 ölkə ilə belə müqavilələri var. ABŞ, Birləşmiş Krallıq, Avstraliya, Hindistan, Filippin, Fransa, Almaniya, Malayziya, İtaliya, İndoneziya, Vyetnam, Tayland, İsveç, Sinqapur, BƏƏ, Monqolustan və Banqladeş bu siyahıda yer alan ölkələrdir.

Yaponiya artıq Avstraliyaya idarə olunan raket freqatları satmaq barədə razılığa gəlib. Yeni Zelandiya da onlara maraq göstərib. İndoneziya və Filippinə istifadə olunmuş hərbi gəmilərin verilməsi də müzakirə olunur. Hava hücumundan müdafiə təchizatı da mümkündür. Tokio, həmçinin Böyük Britaniya və İtaliya ilə birgə 2030-cu illərin ortalarında istifadəyə verilməsi planlaşdırılan yeni nəsil qırıcı təyyarə hazırlayır. Bu, inkişaf xərclərini bölüşmək və yeni texnologiyalara çıxış əldə etmək strategiyasının bir hissəsidir. Əvvəllər silah ixracına qoyulan məhdudiyyətlərin aradan qaldırılması qərarının Tokionun Ukraynaya da silah tədarükü üçün qapı açacağını mümkün edir.



### Cəmiyyət silah ixracına "yox" deyir

Yaponiya atom bombası dəhşətini yaşayan ölkədir. 6 avqust 1945-ci ildə atom bombası bu ölkənin Xirosima, həmin tarixdən üç gün sonra isə Naqasaki şəhərlərinə atılıb. Onilliklər boyunca bu faciələrin ağır fəsadlarını yaşayan Yaponiya cəmiyyətində "pasifist kimlik" (sakit, barış kimliyi) formalaşıb. Bu anlayış özündə müharibələrə nifrət hissini ehtiva edir.

Təbii ki, "pasifist kimlik" əhval-ruhiyyəsi ilə böyüyən nəsil silah ixracına qoyulan qadağaların tarixin arxivinə göndərilməsini qəbul etmir və hökumətin qərarına "yox deyir. Bu günlərdə Yaponiyada minlərlə insan parlament binası ətrafında genişmiqyaslı etiraz aksiyası keçirib. China Media Group tərəfindən yayılan məlumata görə, etirazlar Yaponiya hökumətinin silah ixracına qoyulan məhdudiyyətləri yumşaltmaq, konstitusiyaya dəyişiklik etmək və müdafiə büdcəsini artırmaq planlarına qarşı təşkil olunub.

Xirosima doğumlu 56 yaşlı Cuniçi Kikuta deyib: "Sülhün əhəmiyyətini öyrənərək böyümüşəm. Atom bombasının yaratdığı dağıntı bu gün də hələ aktuallığını qoruyur".

Kikuta bununla qərara qarşı olduğunu bildirib. O, vurğulayıb ki, Yaponiya nüvə silahına məruz qalan yeganə ölkə kimi silahlardan uzaq durmaq və müharibə əleyhinə çıxmaq mövqeyini qoruyub saxlamalıdır.

***Mübariz FEYİZLİ***

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# Hərəkətin sehrində gizlənən duyğular...



## Rəqs addımların ahəngi, hisslərin ifadəsidir

Rəqs sözlərin yetərsiz qaldığı zaman qəlbin danışdığı, bədənin isə musiqi ritmi ilə nəfəs aldığı sehrli bir aləmdir. İnsanın daxili dünyasında gizlənən hissləri incə hərəkətlər, ahəngdar addımlarla üzə çıxaran, hər baxanın özünə görə mənalandırdığı dildir. Dünyanın demək olar ki, bütün xalqlarında maraqlı rəqs nümunələri var. Bu rəqslər öz fərqlilikləri və ifa çətinlikləri ilə insaları heyrətə gətirə bilər.

Rəqs təkcə fiziki aktivlik deyil, həm də psixoloji rahatlıq və yaradıcılığın sərbəst şəkildə ortaya qoyulmasıdır. Ənənəvi xalq rəqslərindən tutmuş müasir rəqs üslublarına qədər hər bir janr özündə bir tarix, həyat tərzi və dünyagörüşü daşıyır.

Qədim dövrlərdə rəqs hərəkətləri olduqca sadə olub. İnsanlar müəyyən bir ritm altında əl və ayaqlarını sərbəst şəkildə hərəkət etdirərək rəqs edirdilər. Rəqslər hər zaman müxtəlif mərasimlərin, bayramların mühüm hissəsini təşkil edib. Bu gün bizə məlum olmayan bir sıra qədim rəqslər var ki, onlar maraqlı tarixçələri ilə seçilir.

**Ölülərlə rəqs**

Madaqaskar əhalisinin çox qəribə və qədim adəti var. Yerli əhali hər yeddi ildən bir xüsusi mərasim keçirir. Ada sakinləri öz yaxınlarının məzarlarını açıb cəsədləri çıxarırlar. Daha sonra cəsədin köhnə kəfəni yenisi ilə əvəz edilir. Ölülərin qalıqları təkrar dəfn edilməzdən əvvəl heyvan ətlərindən hazırlanmış süfrə açılır. Əhali süfrə arxasında cəsədləri çiyinlərinə alaraq musiqi sədaları altında rəqs edirlər.

**Müqəddəs Vitta rəqsi**

Almaniyada XIV-XV əsrlərin ortasında bu rəqs olduqca məşhur imiş. Bu rəqsi hətta "kütləvi dəliliyin" erkən təsvir edilmiş formalarından biri kimi qiymətləndirirlər. Yüzlərlə insan bütün gün ərzində qeyri-ixtiyari yorulana qədər rəqs edir. Bu rəqs həftə ərzində dayanmadan davam edir. İlk dəfə bu rəqs 1374-cü ildə Aexen şəhərində qeydə alındıqdan sonra bütün Avropada yayılıb.

**Vendiqo rəqsi**

Hindlilərin ənənəvi rəqsidir. İnsanlar rəqs vasitəsilə çürümüş parçalardan ibarət geyim, qəribə saç düzümü ilə adamyeyən bədheybətləri təsvir edir. Rəqs edənlər ovçu bədheybətlərin dəlisov hərəkətlərini təqlid edir.

**Tarantella**

İtaliyanın Neapol şəhərində XV əsrdə yaranmış rəqsdir. Rəqsin adı haqqında iki maraqlı versiya var. Belə ki, bir qrup insanlar rəqsin adının Taranto şəhəri ilə bağlı olduğunu düşünür. Digərləri isə bu yerlərdə tez-tez rast gəlinən nəhəng hörümçəklə əlaqələndirir. İnsanlar hesab edirdilər ki, bu hörümçəklər zəhərlidir. Hörümçək dişləməsindən yaranan ölümcül xəstəliklərdən qurtulmaq üçün insanlar sadəcə çoşqun və sürətli rəqslər etməyə başlayıb. Yalnız 300 il sonra məlum olub ki, hörümçəklər heç zəhərli deyilmiş.

**Ülvilik, gözəllik və birlik rəmzi!**

Ölkəmizdə rəqsin tarixi olduqca zəngin və qədimdir. Əksər dünya xalqlarında olduğu kimi, azərbaycanlılarda da ilk rəqslər ritual və ov rəqsləri olub. İbtidai icma quruluşu dövründə Azərbaycan ərazisində yaşayan müxtəlif qəbilə üzvləri ova çıxdıqları zaman əl çala-çala, ya da ağac və daşları bir-birinə vuraraq rəqs edirdilər. Bu cəhətdən Qobustan və Gəmiqayadakı qayaüstü təsvirlər səciyyəvidir.

İncəsənətin bir qolu olan rəqslərimiz ülvilik, gözəllik və birlik rəmzi sayılır. Azərbaycan xalq rəqsləri olduqca rəngarəngdir. Onlar quruluş, süjet və mövzu baxımından biri-birindən çox fərqlənir. Bu gün məşhur olan milli rəqslərimizə - "Azərbaycan", "Heyvagülü", "Uzundərə", "Toy rəqsi", "Turacı", "Tərəkəmə", "Cəngi", "Şalaxo", "İnnabı", "Qızılgül", "Qazağı", "Qaytağı", "Qoçəli", "Lalə", "Misri", "Naznazı", "Vağzalı", "Yallı" və digərlərini misal gətirmək olar.

Qeyd edək ki, aprelin 29-u Beynəlxalq Rəqs Günü kimi qeyd olunur. Bu gün 1982-ci ildə UNESCO-nun Beynəlxalq Rəqs Şurası tərəfindən tanınmış fransız baletmeysteri, müasir dünya baletinin nəzəriyyəçisi sayılan Jan-Jorje Noverin xatirəsinə ehtiram olaraq təsis edilib.

Beynəlxalq Rəqs Günü həm də mədəniyyətlərarası dialoqun gücləndirilməsinə xidmət edir. Çünki fərqli ölkələrdən olan insanlar bir-birinin rəqslərini öyrənərək, ifa edərək və paylaşaraq qarşılıqlı anlayış və hörmət mühitini daha da dərinləşdirirlər. Bu isə dünyamızın daha rəngarəng, tolerant və harmonik olmasına töhfə verir. Bu günün ruhunda həm də bir mesaj gizlənir. Hər kəs rəqs edə bilər, hər kəs öz ritmini tapa bilər və hər bir insanın daxilində ifadə olunmağı gözləyən bir melodiya var.

*Yeganə BAYRAMOVA*

# Heyvanların həyatını qoruyan əllər!

## Baytarların missiyası əvəzolunmazdır...

Bəzən heyvanların müdafiəyə ehtiyacı insanlardan daha çox olur. Bu canlıların dili olmadığı üçün onlar öz ağrılarını ifadə edə bilmirlər. Amma insan diqqətindən yayınan bu səssizlik saysız problemlər, xəstəliklər və təhlükələrlə gizlidir. Məhz buna görə də baytarlar yalnız bir peşə sahibi deyil, eyni zamanda canlıların həyatını qoruyan, onların sağ qalması üçün gecə-gündüz çalışan xüsusi missiya daşıyıcılarıdır.

Heyvan və quşları müalicə edən həkimlər əlbəttə ki, dördayaqlı və qanadlı xəstələrindən təşəkkür eşitmirlər. Ancaq şübhəsiz ki, heyvanlar da öz xilaskarlarına qarşı insanlar kimi minnətdarlıq hissi keçirirlər. Baytarlıq fəaliyyəti yalnız ev heyvanlarının müalicəsi ilə məhdudlaşmır. Həmçinin kənd təsərrüfatı heyvanlarının sağlamlığının qorunması, qida təhlükəsizliyinin təmin edilməsində də baytarların rolu böyükdür.

Hər il dünyanın bir çox ölkəsində aprelin 29-u Beynəlxalq Baytarlıq Günü kimi qeyd edilir. 2000-ci ildə Dünya Baytarlıq Assosiasiyası (WVA) tərəfindən yaradılan bu günün məqsədi dünyada baytarlıq işlərinin müxtəlif aspektlərini vurğulamaq, heyvanların sağlamlığı və rifahının yaxşılaşdırılmasına töfhələr verməkdir.

Bu günün mahiyyəti yalnız baytarların əməyini qeyd etmək deyil, həm də insanlarla heyvanlar arasındakı münasibətin daha məsuliyyətli, mərhəmətli və şüurlu olmasını təşviq etməkdir. Bir çox hallarda insan fəaliyyəti - mühit çirklənməsi, yaşayış yerlərinin məhv edilməsi və laqeydlik heyvanların sağlamlığı üçün ciddi risklər yaradır. Bu risklərin qarşısını almaqda baytarlar ön cəbhədə dayanır.

Baytar həkimlərinin işi emosional baxımdan da çox çətindir, çünki hər canlını xilas etmək mümkün olmur. Buna baxmayaraq, onlar hər gün yenidən ümidlə işə başlayır, çox vaxt səssiz təşəkkürlərə, sağalan heyvanların davranışlarına və sahiblərin sevincinə güvənirlər. Bu da göstərir ki, baytarlıq yalnız elm deyil, həm də böyük bir səbr, mərhəmət və insanlıq tələb edən peşədir.

Beləliklə, Beynəlxalq Baytarlıq Günü bizə xatırladır ki, həyat yalnız insanlar üçün deyil, hər bir canlı üçün qiymətlidir. Bu həyatı qoruyan, onlara şəfa verən, bir toxunuşla ümid bəxş edən bütün baytar həkimləri ən dərin təşəkkür və ehtirama layiqdirlər.

Qeyd edək ki, ölkəmizdə də baytar həkimlərin fəaliyyəti yüksək qiymətləndirilir və baytarlıq sahəsinin inkişafı istiqamətində mühüm işlər həyata keçirilir. Təsadüfi deyil ki, heyvan sağlamlığının təmin olunması və baytarlıq nəzarəti sahəsində bir çox uğurlar əldə edilib. Respublikamızın xırdabuynuzlu heyvanların taunu xəstəliyindən azad status alması üçün zəruri tədbirlər görülüb. Ölkədə



ilk dəfə meşə zolağına helikopter vasitəsilə 600 kilometr məsafədə 18 min aldadıcı yem səpilərək vəhşi heyvanlar arasında quduzluq xəstəliyinə qarşı peyvəndləmə aparılıb. Yüksək patogen quş qripi, dabaq və quduzluq kimi xüsusi təhlükəli xəstəliklər üzrə böhran vəziyyətinin idarə olunması üçün aidiyyəti qurumlarla birlikdə mütəmadi qaydada simulyasiya təlimləri keçirilir.

Eyni zamanda, baytarlıq nəzarətində olan yüklərin ixracı ilə bağlı ciddi uğurlar əldə edilib. Bundan başqa, baytarlıq preparatlarının qeydiyyatı və idxalı prosedurları, baytarlıq müşahidəedici sənədlərinin verilməsi prosesləri tam elektronlaşdırılıb. Ölkədə fərdi baytarlıq xidməti ilə məşğul olmaq istəyən fiziki şəxslərin qeydiyyata alınması elektron formada həyata keçirilir.

Həmçinin heyvan sağlamlığının təmin edilməsi və baytarlıq nəzarətinin həyata keçirilməsində laboratoriya sisteminin əhəmiyyəti nəzərə alınaraq, bu sahədə əsaslı işlər görülüb. Hazırda ölkə ərazisində heyvan xəstəliklərinin diaqnostikası və müayinəsi üzrə 8 laboratoriya fəaliyyət göstərir. Həmin laboratoriyalar dünyanın ən böyük şirkətləri tərəfindən təşkil olunmuş Beynəlxalq Peşəkarlıq Testlərində müxtəlif xəstəliklər üzrə iştirak edib və uğurlu nəticələr qazanıb.

Onu da bildirək ki, Ümumdünya Heyvan Sağlamlığı Təşkilatı tərəfindən Azərbaycanda baytarlıq sistemlərinin qiymətləndirilməsi missiyası həyata keçirilib. Ölkəmizdə həmin sistemin inkişafı müsbət xarakterizə olunub.

*Yeganə BAYRAMOVA*

# "Azercell" milli rəqəmsal ekosistemin gücləndirilməsinə strateji töhfəsini davam etdirir

**Şirkət 2025-ci ildə infrastruktur modernləşdirilməsi, süni intellektəsaslı idarəetmə və kibertəhlükəsizlik istiqamətində kompleks tədbirlər həyata keçirib**

Abunəçilərinə ən yüksək müştəri təcrübəsini təqdim etməyi prioritet kimi müəyyən edən "Azercell Telekom" MMC 2025-ci il ərzində şəbəkə infrastrukturunun genişləndirilməsi və modernləşdirilməsi, süni intellektəsaslı idarəetmə mexanizmlərinin tətbiqi, kibertəhlükəsizlik imkanlarının gücləndirilməsi və böhran davamlılığının artırılması istiqamətində ardıcıl və sistemli tədbirlər həyata keçirib. Şirkətin təşəbbüsləri milli rəqəmsal ekosistemin dayanıqlılığının möhkəmləndirilməsinə mühüm töhfə verib.

Hazırda 5 milyondan çox abunəçiyə xidmət göstərən "Azercell"in ölkə üzrə coğrafi əhatə dairəsi 95,6 faiz, əhali üzrə əhatə səviyyəsi isə 98,6 faiz təşkil edir. Artan data trafiki və sürətlə dəyişən istifadəçi davranışları şəbəkənin optimallaşdırılmasını şirkətin əsas prioritetlərdən birinə çevirib. İl ərzində 220-dən çox mövcud baza stansiyası modernləşdirilib, Bakı, Abşeron və Sumqayıt üzrə 50, regionlarda isə 218 olmaqla ümumilikdə 268 yeni baza stansiyası istifadəyə verilib. Nəticədə ölkə üzrə LTE (4G) baza stansiyalarının sayı 3860-ı ötüb.

Eyni zamanda, şirkət beynəlxalq GSM Assosiasiyası (GSMA) və süni intellekt, bulud texnologiyaları, eləcə də analitika sahəsində qlobal liderlərdən biri kimi tanınan IBM ilə strateji əməkdaşlığını genişləndirərək şəbəkə optimallaşdırılması proseslərində generativ süni intellektəsaslı həllərin tətbiqinə başlayıb. Bu çərçivədə həyata keçirilən təşəbbüs əl əməyinə əsaslanan təhlil proseslərini əhəmiyyətli dərəcədə azaldaraq şəbəkə performansının daha sürətli və dəqiq qiymətləndirilməsinə imkan yaradıb. Qərar qəbuletmə mexanizmlərinin çevikliyi artıb, optimallaşdırma prosesləri isə daha məlumatəsaslı şəkildə həyata keçirilib. Layihənin "GSMA AI Use Case Library"də yer alması "Azercell"in qlobal innovasiya ekosistemində fəal iştirakını və süni intellektəsaslı transformasiya strategiyasının beynəlxalq səviyyədə tanındığını nümayiş etdirib.

Şirkət Azərbaycan Respublikasının 2023-2027-ci illər üzrə informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik strategiyasını rəhbər tutaraq bu istiqamətdə də strateji yanaşmasını dərinləşdirib. "Azercell" daxili sistemlərdə süni intellekt texnologiyalarının tətbiqini genişləndirib, insidentlərin avtomatlaşdırılmış təhlili, zəifliklərin aşkarlanması və risklərin operativ qiymətləndirilməsi mexanizmlərini təkmilləşdirib. Real vaxt rejimində monitorinq imkanlarının gücləndirilməsi potensial kibertəhlükələrin qarşısının vaxtında alınmasına və ümumi aşkarlama səviyyəsinin yüksəldilməsinə şərait yaradıb.

"Azercell"in "CyberCell" komandası "Critical Infrastructure Defence Challenge 2025" yarışında ikinci dəfə vitse-çempion adını qazanaraq kritik infrastrukturun qorunması sahəsində yüksək peşəkarlıq nümayiş etdirib. Şirkət mütəxəssislərinin "Black Hat USA 2025" və "DEFCON 33" kimi nüfuzlu beynəlxalq platformalarda iştirakı isə "Azercell"in qlobal kibertəhlükəsizlik gündəliyində aktiv mövqeyini bir daha təsdiqləyib.

Eyni zamanda, Bakı Mühəndislik Universiteti və Azərbaycan Kibertəhlükəsizlik Mərkəzi ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən təşəbbüslər sektor üzrə bilik və bacarıqların artırılmasına, yerli ekspert potensialının gücləndirilməsinə xidmət edib.

Rabitə infrastrukturunun uzunmüddətli dayanıqlılığının təmin edilməsi məqsədilə "Azercell"in təşəbbüsü ilə yaradılmış "Böhran İdarəetmə Qrupu" 2025-ci ildə fəaliyyətini genişləndirərək institusional əməkdaşlıq modelini daha da möhkəmləndirib. Bu çərçivədə ölkə ərazisində və Orta Dəhliz boyunca rabitə infrastrukturunun etibarlılığını və fasiləsizliyini təmin edən vahid koordinasiya mexanizminin formalaşdırılması istiqamətində işlər davam etdirilib. "Aztelekom" və "Azercosmos" nümayəndələrinin iştirakı ilə biznes davamlılığı, böhran kommunikasiyası, infrastrukturun operativ bərpası və informasiya təhlükəsizliyi üzrə praktiki təlimlər və ssenariəsaslı məşqlər həyata keçirilib. Bakı şəhərində və Qarabağ bölgəsində real vaxt rejimində keçirilən dayanıqlılıq testləri komandalararası koordinasiyanın effektivliyini nümayiş etdirib, milli peyk imkanlarından istifadə etməklə rabitə xidmətlərinin fasiləsizliyinin təmin olunması uğurla sınaqdan keçirilib.

"Bağlantını asanlaşdırır, həyatı daha dolğun edirik" strateji məqsədinə sadiq qalan "Azercell" innovativ texnoloji həllər və dayanıqlı inkişaf prinsiplərinə əsaslanan yanaşması ilə Azərbaycanın rəqəmsal transformasiyasına töhfə verməyə davam edəcək.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 5181
Sifariş: 548
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova